www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 fevral 2015-ci il Cümə № 27 (6055) Qiyməti 40 qəpik

**Xəbər**

## 20 min nəfərlik hərbi təlimlərin səbəbi: savaş başlayır?

yazısı səh.6-da

**Gündəm**

### Avropa Birliyi rəsmi Bakını Riqa sammitinə görə sıxır



Yunanıstan SOCAR-ın yarım milyardlıq sövdələşməsində son sözün yenə də AB-nin olacağını bəyan edib; Azərbaycan hakimiyyətinin may ayınadək vaxtı var

yazısı səh.8-də

### Qusar gömrüyü - işgəncə aparatı...

yazısı səh.12-də

### Kəlbəcərli girovlarla bağlı separatçılardan sərsəm tələb

yazısı səh.11-də

### Azərbaycan lobbisinin Amerikada hərəkətə keçməsinin pərdəarxası

yazısı səh.9-da

### Tərtər və Ucar polisində nə baş verib?

yazısı səh.7-də

### Ermənistanda sığınacaq almış azərbaycanlı ailə İrəvanı tərk edib

yazısı səh.12-də

### Rusiyaya qarşı sanksiyalar genişləndirilir

yazısı səh.9-da

### Narazı dəmiryolçular 5 tələblə etiraz aksiyasına hazırlaşırlar

yazısı səh.15-də

### Bələdiyyə üzvləri nəzarət altına alınır

yazısı səh.10-da

### "Türmədə süni mayalanma" barədə bilmədiyimiz ilginc gerçəklər

yazısı səh.13-də

### Balakəndə məhkəmə zalındakı qətlin təfərrüatları

yazısı səh.15-də

### Deputatdan hökumətə antiböhran təklifləri

yazısı səh.10-da

### "8-ci kilometr" bazarının sirr kimi saxlanan yeni sahibi kimdir?

# KƏRƏM HƏSƏNOVUN BAZAR ƏHVALATI

Bakının ən iri ticarət mərkəzlərindən olan bazarı alan naməlum milyonçunun adı açıqlanmır, Əmlak Məsələləri Dövlət Komitəsi susur, satıcılar danışmır, ekspert isə deyir ki, bu özəlləşdirmə haqda bilgilər mütləq ictimaiyyətə açıqlanmalıdır

yazısı səh.4-də



Kərəm Həsənov



Qərib Məmmədov

## Prezident Qərib Məmmədovun komitəsini ləğv etdi

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi "bölüşdürüldü"; son müşavirədə İlham Əliyev onun rəhbərlik etdiyi qurum haqda iradlarını bildirmişdi; Qərbi Azərbaycanın nüfuzlu məmurlarından olan sabiq komitə sədri yeni vəzifəyə təyinat ala da bilər

yazısı səh.2-də



### Qubad İbadoğlu yenidən Divana çağırıldı

yazısı səh.4-də



### Sirac Kərimlinin məhkəməsi başladı

yazısı səh.3-də



### Lamiyə Quliyeva azadlığa buraxılır

yazısı səh.5-də

# Əli Həsənov gənclər siyasətindən danışdı

**1997-ci ildə 2 fevral - Gənclər günü elan edilib. 25 oktyabr 2011-ci ildə isə prezident İlham Əliyevin iştirakı ilə 6-cı Gənclər Forumu keçirilib. Əsası Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir". Bunu fevralın 5-də Gənclər və İdman Nazirliyi yanında Gənclərlə iş üzrə İctimai Şuranın "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"na həsr olunmuş iclasında Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov deyib.**



Gənclər siyasəti bu sahədə qəbul edilən proqramlardan, Gənclər Fondunun yaradılmasından söz açan Ə. Həsənov ötən dövrdə Gənclər Fondu tərəfindən 1865 layihəyə dəstək verildiyini, 608 gənclər təşkilatının, 1197 fərdi gəncin layihəsinə maliyyə ayrıldığını qeyd edib: "Yaxın vaxtlarda gənclər mərkəzlərinin sayı 50-ni keçəcək. Bu gün iclasında iştirak etdiyimiz İctimai Şuranın toplantısı göstərir ki, dövlətimiz gənclər siyasətini bilavasitə gənclərin iştirakı ilə formalaşdırılır. Azərbaycan dövləti həm gənc nəslə etibar edir, qayğıları ilə məşğul olur, həm də gənclərin təkliflərini strategiyalara çevirir. Prezident dəfələrlə bəyan edib ki, siyasətimiz vətəndaşlara xidmət, onların problemlərinin həlli üzərində qurulub. Bu siyasətin mərkəzində insan amili durursa, bunun da əsasında gənclər dayanır. Heç bir Azərbaycan vətəndaşı demir ki, valideynləri, dostları üçün yaşayıram, deyir ki, övladları üçün yaşayır. Dövlətin gənclər siyasəti də bu əsasda qurulub".

**Ə. Həsənov gəncləri strategiyanı təhlil etməyə çağırıb:** "Bu gün burada yaxşı təkliflər səsləndi. Əminəm ki, bu təkliflər əsasında fəaliyyət planları hazırlanacaq və 10 il sonra yeni strategiya qəbul edərkən bu strategiyanın uğurla həyata keçdiyini qeyd edəcəyik".

# Kerrinin kritik Ukrayna səfəri başladı



**ABŞ dövlət katibi Con Kerri Ukraynaya rəsmi səfərə gəlib. Bu barədə azvision.az "İnterfax" agentliyinə istinadən xəbər verir. Dövlət katibinin təyyarəsi Kiyevdə "Borispol" hava limanına enib. Ukraynaya səfəri zamanı Kerri ölkə prezidenti Pyotr Poroşenko, baş nazir Arseniy Yatsenyuk və ukraynalı parlamentarilərlə görüşəcək.**

"Səfər ABŞ-ın Ukraynaya verdiyi dəstəyin növbəti sübutu olacaq. Görüşlər zamanı müzakirə olunacaq əsas məsələlər Ukraynada islahatların aparılması və ölkənin şərqindəki gərginliyin azaldılması yollarının axtarılması olacaq", - deyə Ukrayna XİN-in rəsmi nümayəndəsi Yevqeniy Perebiynis bildirib.

# Azərbaycanlı girovların məsələsi Türkiyə parlamentində qaldırıldı



**Azərbaycan Beynəlxalq Diaspor Mərkəzinin, Türkiyənin Əsassız Erməni İddiaları ilə Mübarizə Dərnəyinin və Qarabağ Azadlıq Təşkilatının Türkiyə Təmsilçiliyinin birgə təşkilatçılığı ilə Birləşmiş Millətlər Təşkilatının Ankaradakı ofisi qarşısında azərbaycanlı girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı etiraz aksiyası keçirilib.**

Aksiyada bir çox tanınmış şəxslər, o cümlədən CHP-dən olan millət vəkilləri Ali Özgündüz, Mustafa Balbay iştirak və çıxış ediblər. Qarabağ Azadlıq Təşkilatı (QAT) Beynəlxalq Diaspor Mərkəzinin rəhbəri İsmayıl Ağayevə istinadən maraqlı bir xəbər yayıb. Bildirilir ki, adıçəkilən millət vəkilləri aksiyadan sonra parlamentin iclasında girovlarla bağlı məsələni qaldırıblar. İclasın gedişində məsələ ətrafında digər millər vəkillərinin də iştirakı ilə müzakirə açılıb. Sonda girovların azadlığa çıxarılması üçün fəaliyyət göstərilməsi təklifi ilə Türkiyə Xarici işlər Nazirliyinə müraciət olunub.

Qeyd edək ki, bir müddət öncə "Yeni Müsavat"a müsahibəsində MHP-li millət vəkili Atilla Kaya da kəlbəcərli girovların məsələsini parlamentdə qaldıracağı və hökumətə müraciət edəcəyi barədə demişdi.

❑ Cavid TURAN



# Suriya bombalandı

**Fevralın 5-də Suriyada müxalifətçi "İslam Ordusu" qruplaşması paytaxt Dəməşqin şərqindən şəhəri raket atəşinə tutub. Rusiyanın beynəlxalq radiosunun məlumatına görə, yerli vaxtla səhər saat 7:30-dan başlayan atəş zamanı Dəməşqin müxtəlif bölgələrinə 40-dan artıq "Katyuşa" mərmisi düşüb. Suriyanın rəsmi "SANA" Agentliyinin məlumatına görə, raketlərin düşməsi nəticəsində 3 nəfər ölüb, 30-dan artıq insan yaralanıb. Agentlik xüsusən də raketlərin Dəməşqin Məzzə, Cisr Əbyad və Rüknəddin rayonlarına düşdüyünü qeyd edib.**

Qruplaşma lideri Zahran Alluş isə yaydığı yazılı açıqlamada hücumların Dəməşqdəki Hava Qüvvələri Kəşfiyyat Şöbəsi, 8 mart artilleriya briqadası, Baş Kəşfiyyat İdarəsi, Baş Nazirlik və XİN, eləcə də Baş Qərargah və Bəşər Əsədin Maliki rayonundakı iqamətgahının atəşə tutulduğunu bildirib. Yanvarın 25-də də qruplaşma Dəməşqə raket atmışdı.

BMT-nin Cenevrədə yerləşən Uşaq Haqları Komitəsinin hazırladığı hesabatda İŞİD-in azyaşlı uşaqlardan silah olaraq istifadə etdiyi qeyd olunur. Hesabatda həmçinin İŞİD-in uşaqlara "sistematik işgəncə" verdiyi, həmçinin azyaşlı qızları seks köləsi olaraq istismar edərək satdığı, yerdə qalanları çarmıxa çəkmə və diri-diri torpağa basdırma kimi işgəncə vasitələri ilə edam etdiyini qeyd edir. Hesabatda İŞİD-in əsasən köməksiz olan yezidi, xristian və şiə uşaqlara qarşı bu işgəncələri həyata keçirdiyi yazılır.

"Routers" Agentliyinə hesabatla bağlı açıqlama verən mütəxəssis Renate Vinter bildirib ki, xüsusən də əqli qüsurlu uşaqlar İŞİD tərəfindən intiharçı kimi istifadə edilirlər. Onun sözlərinə görə, bu uşaqlar böyük ehtimalla nə etdiklərini bilmirlər. Ekspert İŞİD tərəfindən 8 yaşdan başlayaraq uşaqlara hərbi təlim keçildiyini deyib.

❑ KƏNAN

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Prezident Qərib Məmmədovun komitəsini ləğv etdi

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi "bölüşdürüldü"; son müşavirədə İlham Əliyev onun rəhbərlik etdiyi qurum haqda iradlarını bildirmişdi; Qərbi Azərbaycanın nüfuzlu məmurlarından olan sabiq komitə sədri yeni vəzifəyə təyinat da ala bilər




**Prezident İlham Əliyev Qərib Məmmədovun rəhbərlik etdiyi Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilməsi haqqında fərman imzalayıb.APA-nın məlumatına görə, fərmana əsasən, ləğv edilmiş komitənin dövlət torpaq kadastrı, yerquruluşu, geodeziya, torpaq bazarının təşkili, dövlət torpaq reyestrini aparmaq, bələdiyyələrin elektron daşıyıcıda və kağız üzərində xəritəni, habelə rübdə bir dəfə bələdiyyələrin hüdudları daxilində dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrində baş vermiş dəyişikliklər barədə arayışı Prezident Administrasiyasına təqdim etmək sahəsindəki funksiyaları Əmlak Məsələləri Dövlət Komitəsinə verilir.**

Ləğv edilmiş komitənin torpaqların monitorinqi, onların münbitliyinin bərpası və artırılması, geodeziya, topoqrafiya, xəritəçəkmə, qravimetriya, ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi, dövlət əhəmiyyətli coğrafi məlumat sistemlərinin yaradılması, ümumcoğrafi, torpaq, geobotaniki, siyasi-inzibati, elmi məlumat və digər sahələrarası mövzu xəritələrinin, atlaslarının, kartoqrafik tədris vasitələrinin layihələşdirilməsini, tətbiqini və nəşrini təmin etmək, dəqiqliyinə və məzmununa görə ümumdövlət, müdafiə, elmi-tədqiqat və digər məsələlərin həllini təmin edən dövlət topoqrafik xəritələrin, habelə qrafiki, rəqəmi, fotoqrafik və başqa formalı planların yaradılması, yeniləşdirilməsi, nəşri və geodeziya, qravimetriya, topoqrafiya və kartoqrafiya işlərinin həyata keçirilməsində, materialların istifadəsində dövlətin müdafiəsini və təhlükəsizliyini təmin etmək, vahid dövlət koordinat, yüksəklik, qravimetrik ölçmə sistemlərinin, topoqrafik xəritə və planların miqyas sıralarını təyin etmək və geodeziya, topoqrafiya və kartoqrafiya materiallarının və məlumatlarının metroloji təminatını həyata keçirmək sahəsindəki funksiyaları isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə verilir.

Fərmana əsasən, komitənin Azərbaycan Respublikasının dövlət sərhədlərinin, o cümlədən sərhəd sularının və Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan bölməsinin delimitasiyası və demarkasiyası işlərini Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Sərhəd Xidməti ilə birlikdə həyata keçirir.

Nazirlər Kabineti normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını 3 ay müddətində təmin etməli, habelə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlamalı və bunun icrası barədə 5 ay müddətində prezidentə məlumat verməlidir.

1947-ci ildə Ermənistanın Amasiya rayonunun Yeniyol kəndində anadan olan Q.Məmmədov iqtidarda Qərbi Azərbaycandan olan nüfuzlu fiqurlardan hesab olunurdu. Onu hakimiyyətə mərhum prezident Heydər Əliyev gətirib. 1997-ci ilin iyununda o, Heydər Əliyevin sərəncamı ilə Dövlət Torpaq Komitəsinə rəhbər təyin olunub. 2001-ci ildə və 2004-cü ildə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə sədri təyin olunub. Qərib Məmmədovun rayonlarda olan şöbə mudirlərinə nəzarət edə bilmədiyi barədə mətbuatda dəfələrlə məlumat verilib.

Prezident son müşavirədə ad çəkməsə də birbaşa Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin səlahiyyətlərinə daxil olan istifadəsiz torpaqlarla bağlı ciddi iradını bildirmişdi.

**"İstifadəsiz qalan torpaqlar da kifayət qədər çoxdur. Vaxtilə kimsə onları ya zəbt edib, ya icarəyə götürüb. İcarəyə götürüb və elə də qoyub gedib. Kim torpağı icarəyə götürüb istifadə etmirsə, gərək o icarə müqavilələri ləğv edilsin. O müqavilələr verilsin o torpaqda işləyənə. Yoxsa torpağı götürürlər, ondan sonra təyinatı dəyişdirirlər, daha sonra o torpaqlarda müxtəlif obyektlər tikilir və s. Bu, yolverilməzdir. Yerli icra orqanlarının nümayəndələri nəzarət etməlidirlər. Onların rayonlarında əgər kimsə bu işlə məşğul olursa, buna qarşı tədbir görülməlidir"** deyə, prezident bildirmişdi.

Q.Məmmədov hələ ki heç bir vəzifəyə təyinat almayıb. Bir mənbə "Yeni Müsavat"a deyib ki, geniş maliyyə imkanları olan Q.Məmmədovun kənd təsərrüfatı profilli institutlardan birinə rəhbər təyin ediləcəyi gözlənilir.

**Mövzuya qayıdacağıq.**

❑ Xəbər xidməti



# "Əmanətlər dollarlaşır"

**Samir Əliyev:** "Əmanətlərin bir tərəfdən artım tempi azalacaq, digər tərəfdən isə manatın payı azalacaq"

**Dekabr ayında ölkə iqtisadiyyatında olan gərginlik əmanət bazarında da müşahidə edilib. Ekspertlər bildirirlər ki, Rusiya amili və manatın devalvasiya gözləntiləri əhalini vəsaitlərini dollara çevirməyə vadar edib.**

Ekspert Samir Əliyev məsələ ilə bağlı bildirib ki, 2014-cü ilin dekabrında manat əmanətlərinin azalması, dollar əmanətlərinin isə artması baş verib: "Milli valyutada olan əmanətlərin həcmi 59,7 milyon manat azalıb. Xarici valyutada olan əmanətlər isə 161,7 milyon manat artıb. Bununla da manat əmanətlərinin ümumi əmanətlərdə payı 61,5 faizə düşüb. Halbuki noyabr ayında bu göstərici 63,2 faiz idi".

**Onun sözlərinə görə, diqqəti cəlb edən digər məqam qısamüddətli əmanətlərin artımıdır:** "Yatırdıqları əmanətlərin valyutasının gələcəyi ilə bağlı qeyri-müəyyənlik əhalini qısa müddətə yatırıma sövq edib. Dekabrda qısamüddətli əmanətlər 78,7 milyon manat artdığı halda, uzunmüddətli əmanətlər daha az - 33,2 milyon artıb. Bununla da qısamüddətli əmanətlərin payı 60,2 faizdən 60,4 faizə yüksəlib".

**S.Əliyev qeyd edib ki, ümumən götürdükdə ötən il əmanətlərin həcmi 792,6 milyon manat və ya 12,4 faiz artaraq 7188,4 milyon manata çatıb: "İl ərzində həm milli, həm də xarici valyuta üzrə artım baş verib".**

**Ekspertin fikrincə, bu tendensiya növbəti aylarda da davam edəcək:** "Əmanətlərin bir tərəfdən artım tempi azalacaq, digər tərəfdən isə manatın payı azalacaq. Əhali vəsaitlərini dollara transfer etməkdə davam edəcək. Bu proses ən azı marta kimi uzanacaq. Sonrakı proseslərdən, o cümlədən neftin qiymətindən asılı olaraq yeni situasiya yarana bilər".

❑ RÖYA



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Fevralın 5-də Bakı Ağır Cinayətlər Məhkəməsində müsavatçı gənc Sirac Kərimlinin ilkin məhkəmə hazırlıq iclası keçirildi. Prosesdə gənc fəalın yaxınları, Müsavat başqanı Arif Hacılı, partiya rəhbərliyinə daxil olan şəxslər, müsavatçı gənclər və media nümayəndələri iştirak edirdilər.**



**Arif Hacılı: "Mövcud olmayan sistemdən ədalət gözləmək olmaz"**





# Sirac Kərimlinin məhkəməsi başladı

## Müdafiə tərəfinin verdiyi vəsatətlərin heç biri təmin olunmadı



**Məhkəmədən əvvəl Müsavat başqanı Arif Hacılı partiyanın həbsdəki gənc üzvü ilə bağlı mətbuatın suallarını cavablandırdı:** "Azərbaycanda olan hər hansı bir məhkəmədən ədalət gözləmək sadəlövhlük olardı. Hakimiyyətin apardığı siyasət nəticəsində ölkəmizdə, ümumiyyətlə, ədalət mühakiməsi sistemi mövcud deyil. Bu baxımdan mövcud olmayan sistemdən ədalət gözləmək olmaz. Fərəc və Sirac Kərimli qardaşlarının həbsi siyasi sifarişlə olan həbsdir. Fərəc Kərimli Müsavat Partiyasının Gənclər Təşkilatının liderlərindən biri olaraq fəaliyyət göstərirdi. Xüsusilə mətbuat və sosial şəbəkələrdə daha fəal idi. İnternet sistemində kifayət qədər bilikləri olan şəxs idi. Hesab edirəm ki, onun müxalif mövqedə dayanması, Müsavatın internet sistemindəki işində fəal iştirak etməsi həbsinə səbəb oldu. Hakimiyyət dairələri bütün işləri bu şəkildə səhvən yanlış görürlər. Səhvən onun böyük qardaşını həbs etdilər. Onun Fərəc Kərimli olduğunu zənn etmişdilər. Siracı səhvən həbs etdiklərini biləndən sonra Fərəci də həbs etdilər. Amma səhvlərini düzəltmədilər. Sirac Kərimlini azadlığa buraxmadılar. Bu, hakimiyyətin apardığı əcaib və gülünc siyasətin təzahürüdür".

Proses saat 11:15-ə təyin olunsa da, vaxtından bir qədər gec, 12:00-da başladı. Bu isə məhkəmə binasının önünə toplaşanların etirazına səbəb oldu.

İlk olaraq hakim Əhməd Quliyev məhkəmə heyəti və Sirac Kərimliyə qarşı irəli sürülmüş ittihamlarla bağlı qısa məlumat verdi. Sonra Sirac Kərimli özü barədə danışdı.

**Ardınca müdafiə tərəfinin vəkili Nemət Kərimli bir sıra vəsatətlərlə çıxış etdi. Onun qaldırdığı ilk vəsatət Sirac Kərimli barəsində seçilmiş həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı oldu. Vəkil fikirlərini sübutlarla əsaslandırdı:** "Sirac Kərimli həbs edildikdən sonra nüfuzlu "Amnesty International" təşkilatı tərəfindən vicdan məhbusu kimi tanınıb. Bundan əlavə, Norveç Helsinki Komitəsi Azərbaycandakı 100 siyasi məhbusu Saxarov mükafatı ilə təltif etdiyi zaman Sirac Kərimli də bu siyahıya əlavə olunub. Bütün bunlar hüquqlarını müdafiə etdiyim şəxsə olan ictimai diqqətdən və onun günahsız həbs olunmasından irəli gəlir. Bunları nəzərə alaraq onun barəsində seçilmiş həbs-qətimkan tədbirinin ləğv edilməsi vəsatətinin təmin olunmasını xahiş edirik. 13 dekabr 2014-cü il tarixində Sirac Kərimlinin haqqında seçilmiş həbs müddətinin iki ay uzadılması da sırf qanunsuz şəkildə olmuşdur".

**Vəkilin irəli sürdüyü digər vəsatət sübutların xaric edilməsi ilə bağlı oldu. Dövlət ittihamçısı vəsatətlərin təmin olunmasına heç bir əsasın olmadığını söylədi:** "Vəkil irəli sürdüyü vəsatətləri əsaslandırmadı. Sübutları məhkəməyə təqdim etmədi. Məhkəmə baxışı olmadan vəsatətlər təmin oluna bilməz".

Sirac Kərimli çıxışında vəkilinin verdiyi vəsatətlərlə razı olduğunu qeyd etdi. Hakim cinayət işi materiallarının məhkəməyə göndərilməsi ilə bağlı müdafiə tərəfinin fikirlərini öyrəndi. Sirac Kərimli razılığını bildirdi.

Müdafiə tərəfinin vəkili Nemət Kərimlinin çıxışı zamanı prokurorun vəsatətlərin təmin edilməməsinə heç bir əsas görməməsi ilə bağlı fikirlərinə verdiyi cavab hakimin narazılığına səbəb oldu. Hər iki şəxs arasındakı narazılıq bir neçə dəqiqə çəkdi. Nemət Kərimli də cinayət işi materiallarının məhkəməyə göndərilməsinə razı olduğunu söylədi.

Daha sonra məhkəmə müşavirəyə yollandı. Yarım saatlıq müşavirədən sonra hakim Əhməd Quliyev qəbul etdikləri qərarı proses iştirakçılarının diqqətinə çatdırdı. O, təqsirləndirilən şəxsin gizlənmə ehtimalının yüksək olduğunu nəzərə alaraq, həbs-qətimkan tədbirinin ləğv edilməsi ilə bağlı vəsatətin təmin olunmadığını bildirdi. Sübutların iş materiallarından çıxarılması vəsatətinin də təmin edilmədiyi də hakimin çıxışından məlum oldu. Əhməd Quliyev növbəti prosesin 12 fevral saat 11:30-a təxirə salındığını elan etdi.

Məhkəmədən sonra Sirac Kərimlinin atası Raqif Kərimli və vəkili Nemət Kərimli proses barədə mətbuata açıqlama verdilər.

**Raqif Kərimli məhkəmədən heç bir gözləntilərinin olmadığını qeyd etdi:** "İstintaq necə olubsa, məhkəmə də elə olacaq. Həbsi necə saxta olubsa, məhkəməsi də saxta olacaq. Sifarişlə olan həbsdir. Məhkəmə ədalət göstərsə, qəhrəmanlıq olar. Bunu gözləyirəm, amma inanmıram".

**Nemət Kərimli bitən istintaqla bağlı danışdı:** "İbtidai istintaqla bağlı onları deyə bilərəm ki, ilk əvvəl iki qardaş siyasi motivlərlə həbsə atılıb. Azərbaycan tarixində ilk belə hadisədir. İbtidai istintaq dövründə narkotik maddələrin satışı ilə bağlı heç bir sübut təqdim olunmayıb. Ən böyük qanunsuzluq odur ki, vəkil hal şahidi kimi baxış protokolunu imzalayıb. Bu, Azərbaycanda əvvəllər baş vermirdi. Görünür ki, vəkil əvvəlcədən hazır vəziyyətdə imiş. Biz bununla bağlı vəsatət verdik ki, iş materiallarından bunlar xaric olunmalıdır. Lakin təmin edilmədi. Məhkəmə heç bir əsas gətirmədən həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı da vəsatətimizi rədd etdi. Ölkəmizdə birinci dəfə deyil, bu tipli siyasi məhkəmələr. Hamıya məlum olan yekunu olacaq. Heç bir ədalətli qərar gözləmirik".

Xatırladaq ki, Sirac Kərimli 2014-cü il iyulun 17-də həbs edilib. Onun həbsindən bir həftə sonra qardaşı, Müsavat başqanının müavini Fərəc Kərimli həbs edilib. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə (kütləvi narkotik maddələri əldə etmə, saxlama və satma) ittiham irəli sürülüb. İrəli sürülən maddə üzrə onları 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# Azərbaycanlı futbolçu Ermənistan klubuna keçdi



**21 yaşadək futbolçulardan ibarət Azərbaycan yığmasının sabiq üzvü Şamil Qurbanov Ermənistan klubuna keçib. "Qafqazinfo" vesti.az-a istinadən xəbər verir ki, o, İrəvanın "Uliss" komandası ilə anlaşıb.**

Qurbanov Türkiyədə təlim-məşq toplanışında olan yeni komandasının düşərgəsinə qoşulub. O, Moldova təmsilçisi "Milsami" ilə keçirilən yoxlama görüşündə də iştirak edib.

Maraqlıdır ki, Azərbaycan vətəndaşlığı olsa da, milliyyətcə dağıstanlı olan Qurbanovun "Uliss"ə keçidi erməniləri qorxuya salıb.

Ermənistan Yazıçılar Birliyinin rəhbəri Samvel Beqlatyan çempionata liderlik edən komandaya Azərbaycan vətəndaşlığı olan futbolçunun cəlb olunmasının əleyhinədi: "Necə yəni, o, azərbaycanlıdı? Ermənistan klubunda azərbaycanlı futbolçuya nə gərək var?"

AFFA-nın mətbuat xidmətinin rəhbəri Mikayıl Nərimanoğlu da futbolçunun transferinə münasibət bildirilib.

**Federasiya rəsmisi derbi.az-a bildirib ki, futbolçunun milliyə dəvət olunması məşqçilər komitəsinin istəyindən asılıdır:**

"Futbolçunun hər hansısa kluba keçməsi öz şəxsi seçimidir. Belə məsələlərə biz müdaxilə edə bilmərik. Onun Azərbaycan milli komandasında yenidən çıxış etməsi isə baş məşqçinin istəyindən asılıdır. AFFA heç vaxt baş məşqçinin seçiminə müdaxilə etmir. Azərbaycan millisinə dəvət olunan futbolçulara baş məşqçi və məşqçilər korpusu cavabdehdir".

YENİ MÜSAVAT
N 27 (6055) 6 fevral 2015



# Seçki dəftərinin ilk səhifəsi açıldımı?

**Hüseynbala SƏLİMOV**

**Deyilənlər doğrudursa, artıq birinci seçki bloku yaradılıb. Hətta bu blokun səkkiz partiyanı əhatə etməsi xəbər verilir... Siyasətlə yaxından maraqlananlara bu xəbərin necə təsir edəcəyini yaxşı təsəvvür edirik. Onlar bu siyahıda mütləq iki partiyanı -AXCP-ni və Müsavatı axtaracaq, çünki seçki dövrünün böyük bir hissəsi həmişə üzücü bir prosesə - bu iki partiyanın "birləşib-ayrılma"sına sərf olunur.**

Demirik ki, bununla çox qiymətli bir vaxt hədər gedir, yox, sadəcə, bir az əvvəldə qeyd etdiyimiz kimi, proses həddindən çox üzücü olur və nə edəsən ki, bu iki partiya hələ indiyə qədər münasibətlərini tənzimləməyin başqa bir effektiv mexanizmini fikirləşib tapmayıblar...

Heç də elə təsəvvür yaranmasın ki, biz onların birləşməsinin marağındayıq. Qətiyyən bu haqda düşünmürük də...

Hətta belə fikirdəyik ki, onlar bir seçki blokunda birləşməsə daha yaxşıdır, çünki bu halda nə "ştatlı vasitəçi"lərə-ömrünü müxalifəti birləşdirməyə sərf edənlərə ehtiyac qalar, nə də seçki dövrü mənasız işə sərf olunar. Hətta bəlkə fikrin fərqli səmtə yönəlməsi onları da vadar edər ki, özlərini elektoratın yadına salmağın başqa üsulunu tapsınlar...

Prinsipcə, ilk seçki blokunun belə tez yaradılması müəyyən fikirlərə sövq edə bilər. Bəlkə partiyalar artıq "nəsə" eşidib və duyuq düşüblər?

Hər halda, bunun da fərqində deyilik. Bizi başqa şeylər maraqlandırır. Partiya şəbəkəsi ölkədə çox passiv müşahidəçiyə çevrilib, heç nə ilə maraqlanmır, heç nəyin fərqində deyillər.

Amma baş verənlərin, olanların çoxu ona görə edilir ki, onlar tamam sıradan çıxsın. Əslində elə bir sıra-filan da qalmayıb. Fəqət, əks rabitənin, partiyalarla qeyri-hökumət təşkilatları, partiyalarla mətbuat arasındakı əks rabitənin bərpa olunması ölkədəki siyasi rejimin sərtliyini bir qədər azaldardı...

Amma onlar-partiyalar buna cəhd etmir. Hətta bəzən quruca bəyanat verməyi belə unudurlar. Nə etmək olar?..

Seçki dövrü kimin üçünsə adicə siyasi "bazarlıq" dövrüdür. Olsun. Amma heç olmasa, bir az bazarlaşmanın-siyasi marketinqin predmetini və şərtlərini dəyişməyə cəhd edilsəydi, buna da şükür diləmək olardı-yalnız mandat sevdası ölkəyə heç nə vermir, çünki "təkmandatlı partiyalar"dan ölkəyə hələ ki, zərrə qədər belə olsun, xeyir dəyməyib...

Bizim marağımız nədədir? Təbii ki, ölkənin azacıq da olsa demokratikləşməsində. Bundan artıq umacağımız yoxdur. Bəzən partiyalara elə gəlir ki, onlar da bunun üçün nəsə edir. Amma əfsus ki, onlara belə gəlir, əslində isə reallıq çox acıdır...

Adam oturub elə hey fikirləşir ki, bəlkə biz çox dolayı, səmərəsiz yolla hərəkət edirik? Yəni demək istəyirəm ki, mətbuat və qeyri-hökumət təşkilatları öz qarşılarına bilavasitə siyasi məqsədlər qoymur, düşünürlər ki, ayrı-ayrı partiyalara və liderlərə yardımçı olsalar, vəziyyətlərini azacıq da olsa, düzəldə bilərlər.

Amma axır vaxtlar bu yolun səmərəliliyi bir qədər şübhə və tərəddüd doğurur, çünki məsəl var, deyir ki, hamı "yorğan"ı ilk növbədə öz üzərinə çəkməyə cəhd edir...

Hər seçki dövründə də baxıb görürsən ki, əslində dava da elə "yorğan" davasıdır. Amma belə bir davaya vaxt, əmək və enerji sərf etməyə dəyərmi? Axı bir "yorğan"ın altında ən yaxşı halda iki nəfər ola bilər!.. Ona görə də mətbuatın və qeyri-hökumət təşkilatlarının öz "yorğan"ları uğrunda mübarizə aparmağının vaxtı yetişməyibmi?

Ümumi məqsədlər, demokratiya... Bəli, bunlar çox yaxşıdır. Amma parlamentin qapısından içəri keçəndən sonra heç kim bu haqda düşünmür, hamı ideyanı da, ülvi məqsədləri də kandarda qoyaraq içəri keçir...

Biz fikirləşirik ki, parlamentə iki-üç müxalifətçi seçilsə yaxşı olar. Bəzən elə belə də olur, iki - üç nəfər seçilir, amma onlar hətta salam verib, adamın əhvalını da soruşmurlar...

Ona görə də seçkini həm də öz mübarizəmizə çevirməliyik - məsələn, yaxşı olardı ki, ayrı-ayrı jurnalistlər, ictimai fəallar da öz güclərini sınasınlar...

Düzdür, buna güc demək o qədər də uğurlu ifadə etmək demək deyil. Amma bu, bir o qədər də önəmli deyil - qoy, şans olsun. Bəlkə kiməsə yardımçı olmaqdansa jurnalistlərin və ictimai fəalların özlərinin prosesə qoşulmasına da təkan verməyin vaxtıdır?

Hər halda, bu da bir cəhddir. Heç olmasa, axırda məşhur bir filmdəki kimi, "Mən buna cəhd etdim!" deyə bilərik...

# "8-ci kilometr" bazarının sirr kimi saxlanan yeni sahibi kimdi?

# Kərəm Həsənovun bazar əhvalatı

## Bakının ən iri ticarət mərkəzlərindən olan bazarı alan naməlum milyonçunun adı açıqlanmır, Əmlak Məsələləri Dövlət Komitəsi susur, satıcılar danışmır, ekspert isə deyir ki, bu özəlləşdirmə haqda bilgilər mütləq ictimaiyyətə açıqlanmalıdır



**Əmlak Məsələləri Dövlət Komitəsi tender barədə elanı rəsmi internet saytında yerləşdirsə də nəticələr barədə heç bir məlumat vermədi. Bəs görəsən, tenderin qalibi olan şəxsin adının gizli saxlanılması kimlərin maraqlarına xidmət edir?**

"Yeni Müsavat" qəzeti olaraq bir daha tenderin qalibi olan və dövlət əmlakına məxsus "8-ci kilometr" bazarını özəlləşdirən şəxsin kimliyini öyrənməyə çalışdır. Lakin Əmlak Məsələləri Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Qulu Xəlilov bildirdi ki, bazarı alan şəxs fiziki şəxsdir və mətbuatda kimliyinin açıqlanmasını istəmir. Bu səbəbdən həmin şəxsin adını açıqlaya, əlavə məlumat verə bilmərik.

"8-ci kilometr" bazarının özəlləşdirilməsi haqqında bazarda gəzən söz-söhbəti öyrənmək üçün sözügedən ticarət mərkəzinə üz tutduq. Onlarla satıcı ilə həmsöhbət olsaq da, onlardan heç biri bu haqda danışmaq istəmədi. Satıcılardan yalnız biri qeyd etdi ki, bu tenderin keçirilməsi sadəcə simvolik bir addımdır. Əslində bazara əvvəl kim rəhbərlik edirdisə, indi də həmin şəxsə məxsusdur. Satıcıların bir qismi isə ümumiyyətlə bu haqda məlumatlarının olmadığını bildirdi. Satıcılarla apardığımız söhbətdən məlum oldu ki, məlum informasiya hər kəsdə var, lakin bu haqda susmaq əmri alıblar.

Qeyd edək ki, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi 5 dekabr 2014-cü il tarixində komitənin rəsmi saytında "8-ci km ticarət mərkəzi" səhmdar cəmiyyətinin səhmlərinin satışı üzrə tender elan edib . "8-ci km ticarət mərkəzi" səhmdar cəmiyyətinin səhmlərinin 1 milyon 31 min 82 manat olduğu açıqlanıb. Tenderin şərtlərinə görə, bazarın səhmlərinin 99,89 faizi yeni investorun olacaq. Bunun müqabilində tenderin qalibi dövlət büdcəsinə 312 min manat köçürməlidir.

Müsabiqənin şərtlərinə görə, hazırda "8-ci kilometr" bazarını alan şəxs bir sıra tələbləri yerinə yetirməlidir. Əgər bazarın yeni sahibi bu şərtlərə əməl etsə, yaxın zamanlarda orada tikili və qurğular müasir standartlara uyğunlaşdırılacaq, bazara yeni avadanlıqlar alınacaq, ərazi abadlaşdırılacaq, işçilərin sosial təminatı üzrə iş aparılacaq.

Ancaq satıcılarla apardığımız söhbətdən məlum oldu ki, onlara bu haqda heç nə deyilməyib. "8-ci kilometr" bazarı artıq yarım aydan çoxdur ki, yeni bir şəxsə məxsus olsa da onun burada hansı dəyişikliklər aparacağı bazar əhlinə də məlum deyil. Lakin satıcılar burada hər hansı təmir və yenidənqurma işlərinin aparılacağı təqdirdə icarə haqlarının artacağından narahatdırlar. Onlar bazarın palçıqdan, çirkabdan azad olunmasını istəsələr də hazırkı icarə şərtlərinin dəyişdirilməsini istəmirlər.

Bəs görəsən, dövlət əmlakının səhmlərinin satılması ilə bağlı informasiyaların cəmiyyətdən, mətbuatdan gizli saxlanılması qanunvericiliyə nə dərəcədə uyğundur? Əmlak Məsələləri Dövlət Komitəsi tenderin qalibi olan şəxsin kommersiya maraqlarının qorunması xətrinə bu informasiyaları məxfi saxlaya bilərmi?

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramov bildirdi ki, "8-ci kilometr" bazarı dövlət əmlakı olduğu üçün və burada dövlət əmlakının satışı həyata keçirildiyi üçün Əmlak Məsələləri Dövlət Komitəsi həmin əmlakın kimə və hansı şərtlərlə satıldığı haqqında ictimaiyyətə məlumat verməlidir:** "Əgər söhbət hansısa fiziki şəxsin özəl bir mülkü almasından getsəydi burada kommersiya sirrindən danışmaq olardı. Ancaq burada söhbət dövlət əmlakının özəlləşdirilməsindən gedir. Dövlət əmlakı özəlləşdirilən zaman birmənalı şəkildə alan şəxsin kimliyi, ödənilən məbləğ və sair haqda ictimaiyyətə məlumatların verilməsi və bütövlükdə satış şərtlərinin cəmiyyətə çatdırılmasına ehtiyac var. Çünki tenderlərin şəffaf keçirilməsi bütövlükdə özəlləşdirmə prosesinin əsas məqsədlərindən biri olmalıdır. Bu məsələdə tenderin qalibi olan şəxsin kommersiya maraqları ilə cəmiyyətin informasiaya almaq hüququnun müqayisəsi aparılır. Təbii ki, Əmlak Komitəsinin vəzifəsi bu cür məlumatların ictimaiyyətlə bölüşdürülməsidir".

**Ekspertin sözlərinə görə, tenderlərin qalibləri adlarının gizli saxlanılmasını istəyə bilər, lakin komitə öncədən bu şərti xatırlatmalıdır:** "Dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı xüsusi prinsiplərin qəbul olunmasına ehtiyac var. İddiaçının fiziki və ya hüquqi şəxs olmasından asılı olmayaraq bu məlumatların ictimaiyyətə açıqlanması ilə bağlı bir prinsip qəbul olunmalıdır. Tenderdə iştirak edən şəxslər öncədən bilməlidirlər ki, onların məlumatları cəmiyyətə açıqlanacaq. Nəzərə alaq ki, "8-ci kilometr" bazarının satışı elə də çətin məsələ deyil. Bu bazara tələbat çox yüksəkdir. Həm sahəsinin geniş olması, həm də yerləşdiyi ərazi bu bazara yüksək tələbatı formalaşdırır. Ona görə də birmənalı şəkildə Əmlak Məsələləri Dövlət Komitəsi özəlləşdirmə məsələləri ilə bağlı şəffaflıq prinsiplərinə əməl etməlidir".

Görünür, sözügedən ticarət mərkəzinin yeni sahibinin sirr saxlanması haqda göstəriş "yuxarıların" sifarişidir. Ola bilər, bu səbəbdən də Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov tabeçiliyindəki işçilərə tapşırıq verib ki, mövzu haqda mediaya danışmasınlar. Nə bilmək olar, bəlkə də "8-ci kilometr bazarı"nın yeni sahibi elə Kərəm Həsənov özüdür...

**Mövzunu diqqətdə saxlayacağıq.**

**❑ Nərgiz LİFTİYEVA**

# Qubad İbadoğlu yenidən Divana çağırıldı

## Başqanlığa sabiq namizədə görə qurumun iclasının vaxtı dəyişdirildi

**Müsavat Partiyasının növbəti Divanının vaxtı dəyişdirilib. Səbəb başqanlığa keçmiş namizəd Qubad İbadoğlunun məsələsinin müzakirəsidir. Divanın növbəti iclası ənənəvi olaraq həftənin birinci günü saat 14.00-da deyil, həftənin beşinci günü saat 18.00-da keçiriləcək.**

Məsələ ilə bağlı musavat.com-a danışan **Qubad İbadoğlu** bildirib ki, o, fevralın 2-də keçirilən Divanın iclasına başqa toplantıda olduğu üçün qatıla bilməyib. Həmçinin növbəti iki iclasa da ölkədə olmadığı üçün qatıla bilməyəcək. O, məsələsinin iki həftə sonraya saxlanılmasını xahiş etsə də, partiya rəhbərliyi bununla razılaşmayıb. "Fevralın 9-da və 16-da keçiriləcək iki iclasa qatılmağım mümkün deyil, ABŞ-da tədbirdə olacağam. Ayın 9-dan 19-na qədər Vaşinqtonda səfərim var. Ancaq bildirdim ki, ayın 23-də keçirilən iclasa qatıla bilərəm. Çünki orada deyəcəklərim var. Fevralın 5-də isə təkrar zəng oldu, iclasın vaxtının beşinci gün, yəni ayın 6-sı, saat 18.00-a keçirildiyini bildirdilər. Yəni Divanın iclasının vaxtını mənə görə dəyişdilər".

**Q.İbadoğlu qeyd edib ki, fevralın 6-da keçiriləcək iclasda iştirak edəcək:** "Bəri başdan deyim ki, Müsavat Partiyası Nizamnaməsinin 1.8-ci maddəsində partiya üzvlərinin hüquqları bölməsində göstərilib ki, hər bir partiya üzvünün mənsub olduğu partiya qurumunun bütün tədbirlərdə prosesin gedişinə qarışmadan müşahidə etmək hüququ var. Bu hüquqdan istifadə edərək sıravi müsavatçıların partiyanın sabahkı (bugünkü-red.) Divanında iştirak etməsini istəyirəm və onları dəvət edirəm. Müsavat Partiyası rəhbərliyindən xahiş edirəm ki, sabahkı (bugünkü-red.) iclası açıq təşkil etsin. Həmçinin jurnalistlərin də iştirakı məqsədəuyğundur".



Qubad İbadoğlu

**Q.İbadoğlunun sözlərinə görə, onu Divana partiyadaşı Elman Fəttah çağırıb:** "Səbəb göstərilir ki, iki Divanın iclasında olmayacaqsınız, biz isə sizin məsələniziləngidə bilmərik". **O, təcili keçirilən iclasın nəticəsi olaraq partiyadan çıxarılacağını istisna etmir:** "İclasdan hər şey gözləyirəm".

**Müsavatın Divan üzvü Elman Fəttah isə məsələ ilə bağlı bildirib ki, vaxt dəyişməsinin səbəbi Q.İbadoğlunun xarici səfərləridir:** "Fevralın 2-də Qubad İbadoğlunun məsələsi Divanda müzakirəyə çıxarıldı, ancaq özünün iştirakı olmadığına görə baxılmamış saxlanıldı, müzakirə olunmadı. Beşinci gün də Divanın davamı olacaq. O, növbəti iki iclasda iştirak edə bilməyəcək, buna görə də özü ilə danışıb zamanının uyğun olduğu vaxtda iclası təyin etmişik".

Q.İbadoğlunun müzakirənin nəticəsində partiyadan çıxarılmasına gəldikdə isə E.Fəttah qeyd edib ki, Divan məsələni müzakirə edəcək və qərarlar da Divanda müzakirə olunacaq. O, həmçinin deyib ki, nizamnaməyə görə, Divanın və digər seçkili orqanların iclasları müsavatçılar üçün açıqdır və iştirak da mümkündür.

**❑ Röya RƏFİYEVA**

**Məhkum Lamiyə Quliyevanın işi ilə bağlı 17 günlük gözləmə mövqeyində dayanan dövlət qurumları nəhayət ki, araşdırmalara başlayıb. Fevralın 4-də Baş Prokurorluq Lamiyə Quliyevanın ana olması ilə bağlı araşdırmalara başlayıb. Bunu "Yeni Müsavat"a qurumun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib. Deyib ki, Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən 1987-ci il təvəllüdlü Lamiyə Quliyevanın ötən ilin oktyabr ayında uşaq doğması və digər xüsusatlarla bağlı Ədliyyə Nazirliyi və Baş Prokurorluq tərəfindən birgə müvafiq araşdırmalar aparılır. Nəticəsi barədə ictimaiyyətə əlavə məlumat veriləcək. E.Sultanov "uşağın atası kimdir" sualına cavab verməyib.**

# Lamiyə Quliyeva azadlığın bir addımlığında

## Aslan Aslanovun həbs etdirdiyi qadının işi ilə bağlı hakimiyyət hərəkətə keçdi - Baş Prokurorluq protest verdi, işə Apelyasiya Məhkəməsində baxılacaq; dövlətin imicini zədələyən cinayətkar çete tam ifşa ərəfəsində; Mədət Quliyev danışdı və jurnalistləri xain adlandırdı

### ANS-in sperma açıqlaması - fantastika!!!

Fevralın 4-də bu mövzuya müraciət edən anspress.com belə bir xəbər yayıb.

**Sitat:** "Ombudsman Aparatının əməkdaşları uşağın atası olduğu iddia edilən məhkumla da görüşüblər. Adının açıqlanmasını istəməyən məhkum Lamiyə ilə bir müddət eyni penitensiar müəssisədə saxlanıldığını, onunla qiyabi tanışlıq münasibətinin olduğunu, canlı təmasının olmadığını, uşağın atasının müəyyənləşdirilməsi ilə bağlı dəqiqləşdirilmə aparılması üçün DNT qan analizi verdiyini bildirib. O, izahatında onu da yazıb ki, Lamiyə onun spermasından istifadə edərək süni mayalanma edib. Ombudsman Aparatından verilən məlumatda deyilir ki, həmin məhkum heç bir təzyiqə məruz qalmadığını ərizəsində göstərib".

Maraqlıdır ki, Ombudsman Aparatının mətbuat xidmətin yaydığı rəsmi məlumatda "O, izahatında onu da yazıb ki, Lamiyə onun spermasından istifadə edərək süni mayalanma edib" - cümləsi yoxdur.

### "Bizim rəsmi açıqlamamızda elə bir cümlə yoxdur"

"Yeni Müsavat" əməkdaşı məsələyə aydınlıq gətirilməsi üçün Ombudsman Aparatının işgəncələrin qarşısının alınması şöbəsinin müdiri və Milli Preventiv Mexanizm Qrupunun rəhbəri Vüqar Məhərrəmova müraciət edib. V.Məhərrəmov dəqiqləşdirmə apardıqdan sonra bildirib ki, həmin cümlə yaydıqları rəsmi məlumatda olmayıb: "Bizim rəsmi açıqlamamızda elə bir cümlə yoxdur". Həmin cümləni rəsmi xəbərə soxuşduranlar Aslan Aslanova, Mədət Quliyevə "ayı xidməti" göstərmələrinin fərqinə varmalıdırlar.

### Aslanovun adından açıqlama gəldi

**Şəmkirin sabiq icra hakimiyyəti başçısı Aslan Aslanov ANS-ə açıqlama verib. Deyib ki, bu işdə adının hallanmasını yalan adlandırır və övlad itirən valideyn kimi spekulyasiyalardan təəssüf keçirir:** "Xahiş edirəm ki, bizim yaramızı təzələməyin. Mənim oğlumu həmin şəxslər qrup halında qətlə yetiriblər. 11 il əvvəl olmuş hadisəni indi şişirdərək mətbuatda mənim adımı hallandıraraq sifarişlə yazı yazırlar. Vüqar Əliyev və Lamiyə Quliyevanın yaxınlarının həbsi üçün sifariş verməyim, onların həbsinin uzadılması üçün təzyiq etməyim. Bu barədə yazılanlar təxribatdır və mənim bu işlə heç bir əlaqəm yoxdur. Mən YAP-ın Siyasi Şurasının üzvüyəm, dövlətçiliyə xidmət edirəm".

### Mədət Quliyev sükutu pozdu

**Ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi, ədliyyə general-leytenantı Mədət Quliyev azvision.az-a müsahibə verib. Xidmət rəisinin məhkum Lamiyə Quliyeva ilə bağlı suala cavabı belə olub:**

- Mənim o yazılarla bağlı açıqlama verməyim müdafiə kimi qəbul edilə bilər. Guya mən özümü, xidməti və ya kimisə müdafiə edirəm kimi qəbul edilə bilər. Bu, mənim xasiyyətimə və həyat tərzimə ziddir. Heç vaxt müdafiədə olmuram. Mən öz xidməti işimi görürəm. Bu xəbərlər yazılmalıdır. Demokratik bir cəmiyyətdə yaşayırıq. Kimsə bu cəmiyyətdə öz fikirlərini bildirirsə, burada xətrə dəyəsi nə var ki? Burada narahatedici bir məsələ görmürəm. Cəmiyyətimiz inkişaf edir. Möhtərəm prezidentimiz şərəflə və çox böyük bir məharətlə respublikanın sükanını saxlayır. Xalqımız irəli gedir. Yaşayış səviyyəmiz yüksəlir.

**General-leytenantın növbəti suala cavabı belə olub:**

"Bu məsələlər hamısı açılacaq. Bizim xidmətə qarşı heç bir irad bildirilməyəcək. Bunu hər kəs görəcək. Allaha şükür ki, artıq Baş Prokurorluq bu məsələ ilə məşğul olur. Biz biləndə ki, Lamiyə hamilədir, ona kömək elədik ki, o, uşağını rahat şəkildə dünyaya gətirsin. Onun üçün bütün şəraiti yaratdıq. Bu, adi bir haldır. Belə şeylər ola bilir".

**"Lamiyə Quliyeva uşağının atasının da məhkum olduğunu bildirib. Həmin şəxs isə bu iddiaları təkzib edərək Lamiyə ilə şəxsi yaxınlığının olmadığını bəyan edib. Bu məsələ araşdırılacaqmı" sualına M.Quliyev belə cavab verib:**

"Bu məsələ tərəfimizdən təbii ki, araşdırılacaq. O ki qaldı həmiş şəxsin bunu təkzib edərək ayrı şeylər deməsinə, onun uşağının atası da müəyyən




olunacaq. Hamı onu tanıyacaq".

**Mətbuatda özünün tənqid edilməsinə gəlincə isə xidmət rəisinin cavabı belə olub:** "Heç belə bir şeyi yazmaq və düşünmək olar? Belə yazı yazmaq olar? Kim nə yazır, yazsın. Jurnalistlərin içində də xəyanətkar, satqın, pula, nəyəsə satılan adamlar var. Onlar müharibə şəraitində də satılırdılar. Onlar respublikanın xoş gününü istəməyən adamlardır".

M.Quliyev özü ilə bağlı qara PR kampaniyası aparılması ilə bağlı suala "Mənə qarşı olan qara kampaniya kimlərsə tərəfindən formalışdırılır. Bunlar heç kimin qanını qaraltmamalıdır. Çünki demokratik cəmiyyətdə yaşayırıq. Hər kəs istədiyi fikri yaza bilər. Narahat olmağa heç bir əsas yoxdur. Hər şey yaxşıdır" - deyə cavab verib.

### Baş Prokurorluqdan Lamiyə Quliyevanın işinə yenidən baxılmasına "yaşıl işıq"

Baş Prokurorluq məhkum Lamiyə Quliyevanın 2010-cu ildə Cinayət Məcəlləsinin 317.2-ci maddəsi ilə olan hökmünün ağırlığına görə apelyasiya protesti və müddətin bərpa olunması üçün vəsatət verib. Cəzaçəkmə müəssisəsində Xətai Rayon Məhkəməsinin hakimi Habil Məmmədovun sədrliyi ilə vəsatətə baxılıb. Dövlət ittihamçısı qismində Eldar Balakişiyev çıxış edib. Müddətin bərpa olunması ilə bağlı vəsatət təmin edilib, protestə baxılması üçün Bakı Apelyasiya Məhkəməsinə göndərilməsi barədə qərar qəbul edilib. Prosesdə Lamiya Quliyevanın müdafiəçisi Fəxrəddin Mehdiyev, həmçinin Lamiyə Quliyeva özü iştirak edib.

Prosesdən sonra F.Mehdiyev "Yeni Müsavat"a deyib ki, L.Quliyevanın vəziyyəti yaxşıdır.

*- Lamiyəyə uşağın atası haqda sual verdiz?*

- Dedi ki, bu haqda məlumat verib. Araşdırma gedir.

*- Araşdırma harada gedir?*

- Penitensiar Xidmətin Təhqiqat Şöbəsində.

*- Baş Prokurorluq rəsmi açıqlama yayaraq araşdırma apardığını bəyan edib. Penitensiar Xidmətin Təhqiqat Şöbəsi nəyi araşdırır?*

- Araşdırma Təhqiqat Şöbəsində gedir. Baş Prokurorluq o faktı araşdırır ki, qanunsuzluq olub ya olmayıb.

*- Prokurorluq nəyi araşdırır?*

- Bu məsələ ictimailəşdiyinə görə müəyyən məsələləri, cinayət faktlarının olub-olmamasını araşdırıb.

*- Lamiyə Quliyeva cəzaçəkmə müəssisəsindən çıxarılıb?*

- Xeyr, orada saxlanır, bu gün məhkəmə də orada oldu. Qərar qəbul olunubsa, Lamiyə Bakı İstintaq Təcridxanasına köçürüləcək, onu oradan Bakı Apelyasiya Məhkəməsinə aparıb gətirəcəklər.

*- Məhkəmənin vaxtı təyin olunub?*

- Bu gün işi ora göndəriblər. Gələn həftə prosesin günü təyin olunar.

*- Müvəkkilinizə cəza təyin olunandan illər sonra protest verilməsi təsadüfidir?*

- Təsadüfi deyil, məsələ ictimailəşib və diqqətlə öyrənilib. Lamiyənin günahsız olduğu hər kəsə bəllidir. Həmin vaxt şikayətlər göndərilməyib.

*- Barəsindəki sonuncu hökmdən şikayət verməsinin qarşısını kim alıb?*

- Mən konkret ad çəkmək istəmirəm. Amma proseslər olub və şikayət verilməyib.

*- Aslan Aslanov həmin prosesləri yönləndirib?*

- Mən ad çəkmək istəmirəm.

*- Necə hesab edirsiz, qiyabi tanışlıqdan, spermanın məktubla göndərilməsindən bir qadının ana olması fantastika deyil?*

- Mən bununla bağlı şərh vermək istəmirəm. DNK-lar götürülüb. Nəticəsi də olacaq.

*- Yanvarın 17-də Lamiyənin ana olması xəbəri çıxıb. Növbəti gün DNK-ların götürüldüyü xəbəri çıxıb. Həmin DNK-lar Azərbaycanda ekspertiza ediləcək, yoxsa Rusiyaya, Amerikaya göndərilib?*

- Azərbaycanda ekspertiza ediləcək. Azərbaycanda belə ekspertizaların keçirilməsi üçün şərait var.

*- Lamiyə ötən ilin oktyabrında ana olub. Həmin vaxtdan 5 ay ötür. Sizcə, araşdırmaların gedişatı qaneedici səviyyədədir?*

- Araşdırırlar. Nəticəsi də ortaya qoyulacaq.

*- Uşağın atası hazırda həbsdədir?*

- Həmin şəxs Bakı İstintaq Təcridxanasında saxlanıb. İndi haradadır bilmirəm.

*- Həmin şəxs uşağın atası olduğunu danır. Deyir ki, L.Quliyevanı qiyabi tanıyır. Bu açıqlamadan belə təəssürat formalaşır ki, məsələ onun boynuna qoyulub. Siz necə düşünürsüz?*

- Burada kiminsə boynuna qoyulması söhbətinə inanmıram. Bu məsələ araşdırılır. Özünün də açıqlaması var. Mən şərh verə bilmərəm.

*- Sizə və müvəkkilinizə təzyiqlər var?*

- Mənə təzyiq yoxdur. Lamiyədən də soruşmuşam. Deyir ki, yoxdur.

*- Aslan Aslanovun oğlu Turqay Aslanov Ədliyyə Nazirliyi İstintaq İdarəsinin müstəntiqidir. Onun müvəkkilinizə təzyiq etmək imkanları varmı? Hazırkı mərhələdə onun tutduğu vəzifədən müvəqqəti uzaqlaşdırılması haqda vəsatət qaldırmaq fikriniz varmı?*

- Hələlik Lamiyə ona təzyiqlərin olması haqda bir söz deməyib. Olsa, bu addım atıla bilər.

*- Aslanov deyir ki, onun bu işlərə heç bir aidiyyəti yoxdur.*

- Bununla bağlı şərh verə bilmərəm.

*- Uşağın vəziyyəti necədir?*

- Lamiyənin saxlanma şəraitindən narazılığı yoxdur.

*- Məhkəmənin nəticəsi olaraq L.Quliyeva azad ediləcəkmi?*

- Mən buna əminəm. Məhkəmə ədalətli qərar verib günahsız olaraq həbsdə saxlanılan Lamiyə Quliyevanı azad edəcək.

❑ **E.MƏMMƏDƏLİYEV**

# 20 min nəfərlik hərbi təlimlərin səbəbi: savaş başlayır?

## Müdafiə Nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən rəsmi açıqlama gəldi

**Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı hərbi təlimləri davam edir. Təlimlərin Ermənistan-Azərbaycan cəbhəsində növbəti gərginliyin müşahidə olunduğu, ağır silahların işə düşdüyü və qarşılıqlı itkilərin olduğu dövrə təsadüf etməsi bir sıra uzaqgedən nəticələr ortaya çıxarır.**



Xüsusilə də son vaxtlar savaşın hər an başlaya biləcəyi barədə xəbərlərin ardınca ordumuzun irimiqyaslı hərbi təlimlərə başlaması təsadüf kimi dəyərləndirilmir. Eyni zamanda ordu rəhbərliyinin bundan əvvəl ön cəbhədəki şəxsi heyətin hərbi-psixoloji durumunu yoxlaması da diqqətdən yayınmadı. Qeyd edək ki, sonuncu genişmiqyaslı hərbi təlimlər ötən ilin payızında Türkiyə hərbçiləri ilə birlikdə keçirilib.

Ali Baş Komandanın göstərişinə əsasən birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə fevral ayının 2-də başlayan təlimlərə 15.000 nəfərədək şəxsi heyət, 300-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 200-dən artıq qurğusu, Hərbi Hava Qüvvələrinin 20-dək aviasiya vasitəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri, o cümlədən ehtiyatda olan 5.000 nəfərədək hərbi vəzifəli cəlb edilib. Döyüş hazırlığı çərçivəsində ehtiyatdan çağırılmış hərbi vəzifəlilərə silah və hərbi texnikadan istifadə qaydaları üzrə praktiki məşğələlər, döyüş atışları, mənəvi-psixoloji hazırlıq və döyüş uzlaşması üzrə tədbirlər keçirilir.

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı "Yeni Müsavat"a bildirdi ki, bu, əvvəlcədən planlaşdırılmış hərbi təlimlərdir və son günlər cəbhədə baş verənlərlə hər hansı əlaqəsi yoxdur. Təlimlərə əlavə canlı qüvvənin cəlb olunmasına gəldikdə, nazirlik rəsmisi bildirdi ki, bu kimi addımlar Ali Baş Komandanın tapşırığına əsasən atılıb:** "Silahlı Qüvvələrin 15 min nəfərlik şəxsi heyəti ilə bərabər 5 min nəfər mülki şəxs cəlb olunub. Bu, Silahlı Qüvvələrin bütün qoşun növlərinin iştirakı ilə keçirilən irimiqyaslı təlimdir və davam edir".

Azərbaycanın bəzi bölgələrində hərbi xidməti başa vuran gənclərin yenidən hərbi xidmətə aparılması ilə bağlı daxil olan məlumatlarla bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsi açıqlama yayıb. Oxu.az saytının sorğusuna cavabında Dövlət Xidmətindən bildiriblər ki, fevralın 2-dən başlayan irimiqyaslı təlimlərlə əlaqədar ehtiyatda olan hərbi vəzifəlilər təlimlərə cəlb olunub. "Ali Baş Komandan, cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin fevralın 2-dən başlayan irimiqyaslı təlimlərində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin respublikanın qərb bölgəsində yerləşən şöbə və bölmələri iştirak edib.

Təlimlər zamanı hərbi birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə onların müharibə dövrünün ştatına uyğun komplektləşdirilməsi üçün ehtiyatdan hərbi vəzifəlilər və hərbi-nəqliyyat vasitələri cəlb olunub".

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov** təlimlərə cəlb edilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərlə görüşüb.

Müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətə vətən və xalq qarşısında məsuliyyətlərinə diqqət çəkərək, təlim toplanışında mütəşəkkil qaydada iştirak etdiklərinə, bir an belə tərəddüd etmədən vətənin müdafiəsi üçün şərəf və vicdanla yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə onlara təşəkkür edib.

**Nazir bildirib ki, onlar bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirmək, silahlanmada olan yeni, müasir və modernləşdirilmiş silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, onun düzgün istifadəsi və istismarı qaydalarını bilmək imkanı əldə ediblər:** "Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti bu gün də davam edir. Silahlı Qüvvələrimiz bütün imkanlardan istifadə etməklə düşməni işğal olunmuş torpaqlarımızdan çıxarmağa qadirdir. Son zamanlar düşmən daha da azğınlaşıb. Amma Ermənistandakı hərbi xuntanın rəhbərləri bilməlidirlər ki, Azərbaycan Ordusu və Azərbaycan əsgəri onların layiqli cavabını verir və bundan sonra da verəcəkdir. Qısa bir müddət ərzində 20-dən çox işğalçı məhv edilib. Düşmənin onlarla yaralısı var. Silahlı Qüvvələrimiz də vətən uğrunda şəhid verib. Biz onların yaxınlarına və əzizlərinə başsağlığı veririk. Xalqımız bilməlidir ki, şəhidlərin qisası birə on qat alınıb və bundan sonra da belə olacaqdır".

# 8 partiyanın seçki blokuna Müsavatla ADP-dən münasibət

## Müsavat aprel ayınadək hər hansı seçki blokunda təmsil olunmaq niyyətində deyil

**11 partiyanın funksional əməkdaşlıq etdiyi Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzindəki partiyalardan səkkizi fevralın 4-də "Azadlıq-2015" seçki blokunu təsis ediblər. KXCP, Aydınlar, AzDP, BAP, VİP, ALDP, AXP və Azadlıq Partiyasının yaratdığı blok 2015-ci il parlament seçkilərində iştirakı nəzərdə tutur. Adıçəkilən partiya sədrlərindən ibarət tərkibdə blokun Siyasi Şurasının yaradılması və Seçki Qərargahının formalaşdırılması barədə qərar qəbul edilib. Müsavat, Demokrat və Ümid Partiyası isə blokda təmsil olunmur.**

**Müsavat Partiyasının başqanı Arif Hacılı** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzi konkret olaraq ölkədə siyasi məhbuslar problemi və bəzi demokratik islahatlarla bağlı birgə mövqe sərgiləmək məqsədilə yaradılmışdı. Mərkəzə daxil olan siyasi partiyaların bir-biriləri qarşısında heç bir siyasi öhdəliyi yox idi: "Sadəcə olaraq, bir daha qeyd edirəm ki, bu bir əməkdaşlıq mərkəzi kimi fəaliyyət göstərirdi. Hazırda 8 partiyanın seçki bloku yaratmasının həmin mərkəzə heç bir aidiyyəti yoxdur. Bir daha qeyd etmək istəyirəm ki, yaranan seçki bloku faktiki olaraq mərkəzdən kənarda, hədəfləri bir-birinə yaxın olan siyasi partiyalar tərəfindən yaradılmış seçki blokudur. Onlara ancaq uğurlar arzulaya bilərik".

**A.Hacılı məlumat verdi ki, Müsavata həmin blokda iştirak etmək təklifi verilibmiş:** "Onlar Müsavat Partiyasının qərargahına gələrək belə bir təklifləri olduğunu bizə bildirmişdilər. Müsavat Partiyası ən azı aprel ayınadək hər hansı seçki blokunda təmsil olunmaq niyyətində deyil. Hazırda Müsavat Partiyası bir tərəfdən partiya olaraq seçkilərdə iştirak etmək üçün hazırlıq işlərini davam etdirir. Seçki dairələri üzrə namizədlərimizi müəyyənləşdiririk. Eyni zamanda hər hansı siyasi partiyalarla seçki blokunun yaradılması ehtimalları araşdırılır və bu araşdırmalar ən azı aprel ayına kimi davam edəcək".

**ADP sədri Sərdar Cəlaloğlu yeni seçki bloku yaradanları təbrik elədi və uğurlar arzuladı. Sonra bildirdi ki, Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzini, həmçinin "Azadlıq-2015" seçki blokunu yaradanlar eyni adamlardır:** "Mərkəzin yaradılması təşəbbüskarlarından yalnız Müsavat Partiyası o blokda yoxdur. Mərkəz Müsavat başqanının, KXCP sədrinin və AXP sədri Pənah Hüseynin bilavasitə təşəbbüsü ilə yaradılmışdı. Yəni o təşəbbüsün bizə aidiyyəti yox idi. İndi Müsavat istisna olmaqla, eyni adamlar təşəbbüsü inkişaf etdirib seçki bloku yaradıblar. Biz zorən gəlib mərkəzdə iştirak etdik. Mən iclaslarda mütəmadi olaraq deyirdim ki, bu formatda uzun müddət əməkdaşlıq eləməyimiz perspektivsiz və lazımsızdır. Blok yaradılması məsələsi müzakirəyə çıxarılanda isə dedim ki, assosiativ əməkdaşlıq formatında bir-birini başa düşməyən qüvvələriksə, seçki blokunda heç vaxt bir araya gələ bilmərik. Orada bir dənə insident oldu və bundan sonra qəti qərar verdim ki, bizim bu adamlarla bir blokda olmağımız mümkün deyil".

❑ **Etibar SEYİDAĞA**

# İŞİD-in yandırdığı pilotun anası öldü

## Terrorçu təşkilatın dəhşətli edamı ərəbləri qorxudub

**İŞİD-in iordaniyalı pilot Muaz Kəsəsbini yandıraraq öldürməsi dünyanın əsas hadisələrindən birinə çevrilib və terror təşkilatına diqqət cəlb edib. Xüsusən də ərəb ölkələrində İŞİD-ə nifrət yağdırılıb. İordaniya kralının rəhbərliyi altında Təhlükəsizlik Şurasının toplantısı keçirilib.**

Toplantıda İordaniyanın İŞİD-ə qarşı koalisiyada daha geniş səviyyədə iştirakı haqda qərar qəbul olunub. Ölkənin rəsmi televiziyasına müsahibə verən Kral Abdulla bildirib ki, "İŞİD-ə qarşı amansız bir savaş" başladacaq və onları öz torpaqlarında vuracaq. "Əl-Cəzirə" telekanalının məlumatına görə, İordaniya hakimiyyəti İŞİD-ə qarşı mübarizədə bütün hərbi vasitələri "masa üzərinə qoyub".

Pilotun öldürülməsi ilə bağlı İordaniyanın müxtəlif bölgələrində etiraz aksiyaları başlayıb. Kəsəsbinin doğulduğu Kərak bölgəsində valideynlərinin yaşadığı evdə yas çadırı qurulub, ölkənin müxtəlif bölgələrindən insanlar pilotun ailəsinə başsağlığı verməyə gəlib. Ölkənin bütün məscidlərində yandırılaraq öldürülən pilota qiyabi cənazə namazı qılınıb, kilsə zəngləri çalınıb. Avropa.info xəbər verir ki, ərəb mətbuatının bəzi xəbər saytları pilot Muaz Kəsəsibənin anasının oğlunun faciəvi sonluğuna dözməyərək öldüyü haqqında xəbər yayıb. Xəbərdə iordaniyalı pilotun anasının vəziyyətinin pisləşdiyi üçün xəstəxanaya yerləşdirildiyi və həkimlərin səyinə baxmayaraq dünyasını dəyişdiyi bildirilir.



Bu arada məlum olub ki, Birləşmiş Ərəb Əmirlikləri İŞİD-ə qarşı hava hücumlarını dayandırıb. Bu barədə koalisiyanın lideri ABŞ-dan məlumat verilib. Ağ Evin mətbuat katibi bildirib ki, Muaz Kəsəsbinin yandırılaraq öldürülməsindən sonra yaranmış qorxu səbəbindən BƏƏ İŞİD-ə qarşı hava hücumlarını dayandırıb. Ancaq Əbu Dabi koalisiyadan tamamilə ayrılmayıb. Yalnız məlum olub ki, BƏƏ hərbi təyyarələri əməliyyatlardan çıxaraq ölkələrinə qayıdıb. Eyni zamanda İordaniyanın özündə də bir çoxları koalisiyaya qoşulmaya qarşı olduqlarını və "bunun ABŞ-la İŞİD-in öz məsələsi" olduğunu deyir.

ABŞ prezidenti Barak Obama isə İŞİD-in girov saxladığı insanların axtarılıb tapılması və yerlərinin müəyyən olunması üçün xüsusi qrup yaradılmasına göstəriş verib. Yeni yaradılacaq qrup İraq və Suriya ərazisində xüsusən də amerikalı girovların yerlərini müəyyən edəcək. Yayılan məlumatda qeyd olunur ki, bununla da ABŞ hökuməti İŞİD-in əlindəki girovların iordaniyalı pilotun taleyini yaşamamasını istəyir. Çünki gələn məlumatlara görə, İŞİD-in əlində onlarla girov var, onların bir qismi ABŞ vətəndaşlarıdır.

Bu arada Yaponiya parlamentinin aşağı palatası terrorizmə və ölkə vətəndaşlarının təhlükəsizliyini qorumaq məqsədilə hökumətə əlavə səlahiyyətlər verən qanunu qəbul edib.

Fələstinin Həmas Hərəkatı isə pilotun öldürülməsinə görə İordaniya və ABŞ hökumətlərini günahlandırıb. Yəhya Musa pilotu ora göndərən ABŞ və İordaniya hakimiyyətini ittiham edərək, onların məsuliyyət daşıdığını bildirib.

❑ **KƏNAN**

# Ölkədə lokal etirazlar təhlükəli proseslərə çevrilə bilər

**Xəbər verildiyi kimi, fevralın 4-də Tərtərdə və Ucarda gərginlik yaranıb. Tərtər Rayon Polis Şöbəsinin müvəqqəti saxlama təcridxanasında saxlanılan şəxsin intihar etməsi onun qohumlarının etirazına səbəb olub. Ucar Rayon Polis İdarəsinin rəisi Tahir Quliyevin qohumu, Narkotik Ticarətinə qarşı Mübarizə bölməsinin rəisi Eldəniz İsmayılovun sakinləri təhqir etməsi isə qeyri-rəsmi məlumatlara görə, bu rayonda da əhalinin narazılığını yaradıb. Rəsmilər isə olayın mediada şişirdildiyini deyirlər.**

Ekspertlər baş verənlərin ciddi siqnal olduğunu düşünürlər. Bildirilir ki, bu kimi hadisələr onu göstərir ki, ölkədə sabitliyin pozulması üçün əslində bir intihar və ya İsmayıllıda olduğu kimi ehtiyatsız bir ifadə kifayət edə bilər.

**ADP sədri Sərdar Cəlaloğlu** dedi ki, bu kimi lokal hadisələrin iki səbəbi var: "İnsanlarda narazılıq akkumlyasiya olunur, onlara siyasi partiyalara qoşulmağa, öz fikirlərini azad şəkildə ifadə etməyə imkan vermirlər və daxili enerjilərini boşalda bilmirlər. Buna psixologiyada daxili travmatizm deyirlər. Hətta kiçicik narazılıq belə, insanın daxilində nəhəng bir narazılığa çevrilir. Kütləvi daxili travmatizm Azərbaycanda inkişaf edir. İnsanların qəfil küçələrə çıxması, polisə hücum eləməsi kimi hallar bundan qaynaqlanır. Azərbaycan iqtidarının ən yanlış siyasətindən biri siyasi partiyalarla xalq arasında sədd çəkməsidir, xalqın demokratik qaydada öz narazılıqlarını ifadə etməsinə şərait yaratmamasıdır. Əslində bu, hakimiyyətin özünün özü üçün yaratdığı ən böyük təhlükədir.

Daxili travmatizmi inkişaf etdirən faktorlardan biri isə ağır sosial-iqtisadi vəziyyətdir. Artıq Azərbaycan da iqtisadi böhrana daxil olub. İqtisadi böhranı insanlar artıq öz həyatlarında hiss etməkdədirlər. Bu da insanlarda təhtəlşüur olaraq narahatlığı, narazılığı artırır. Bu faktorun da spontan sosial partlayışlara gətirib çıxardığı şübhəsizdir".

**S.Cəlaloğlu ölkədə sabitliyin qəfil hadisələrlə pozulması təhlükəsinin aradan qalxması üçün ilk olaraq hansı addımların atılmasının vacibliyini də açıqladı:** "Hakimiyyət bilməlidir ki, artıq elə bir zamandır ki, kütləvi narazılıqları güc yolu ilə uzunmüddətli həll etmək mümkün deyil. Ona görə də ilk öncə siyasi partiyalarla xalqın arasında yaradılmış bütün sədlər aradan qaldırılmalıdır. İkincisi, xalqın öz narazılığını dinc yolla ifadə eləməsi üçün şərait yaradılmalıdır. Əgər iqtidar bu addımları atmayacaqsa, Azərbaycandakı indiki vəziyyət mütləq böyük sosial partlayışla nəticələnəcək".

**Tərtərin qonşuluğundakı Bərdə rayonunun deputatı Zahid Oruc da baş vermiş hadisəyə münasibət bildirdi. O qeyd etdi ki, polis idarəsinin rəhbərliyi ilə əlaqə saxlayıb baş verən hadisə ilə bağlı dəqiq məlumat almağa çalışıb:** "Səbuhi Dünyamalıyev 234.2-ci maddə ilə ittiham olunaraq məsuliyyətə cəlb olunubmuş. Rayonun polis idarəsində saxlanılan zaman məlum hadisə baş verib. Bunun zəminində Səbuhi Dünyamalıyevin yaxın qohumları, eyni zamanda məhdud sayda insanların toplaşdığını görən digər insanlar müəyyən sayda polis idarəsinin qarşısına toplaşıblar. Müxtəlif emosional hərəkətlərə yol verilib. Həmçinin bir neçə polis nəfəri ilə çəkişmə baş verib. Xüsusi olaraq nə dövlət orqanlarının ünvanına şüarlar olmayıb, nə də siyasi xarakter daşıyan şüarlardan, vətəndaşların haqlarına qarşı basqı edilməsindən, müxtəlif xarakterli dağıntı hallarından qəti şəkildə söhbət gedə bilməz. Ümumiyyətlə, daxili işlər orqanlarının təlimatlarına görə, belə hadisələr zamanı yaxın rayonların polis orqanlarına da məlumat verilir. Bu zəmində Bərdənin də 10 nəfərdən artıq olmayan polis



Sərdar Cəlaloğlu: "Azərbaycandakı indiki vəziyyət mütləq böyük sosial partlayışla nəticələnəcək"



Zahid Oruc: "Bilmək mümkün deyil ki, bəzən düşmən kəşfiyyatı mülki insanlar içərisində necə işləyir"

əməkdaşı və rəhbərliyi orada iştirak ediblər. Goranboydan isə polis nəfərləri yox, yalnız rəhbər nümayəndə səviyyəsində Tərtərə gedən olub. Orada ilk olaraq dünyasını dəyişən şəxsin yaxın qohumları və ağsaqqallar qəbul olunub. Onlarla geniş söhbət olub. Onların dünyasını dəyişən şəxsin illərlə istifadəçi olmağından irəli gələrək yaşadığı şərait və ətrafına da bir neçə dəfə vurduğu ziyanlar haqqında etirafedici mövqeləri var. Yəni hadisə ətrafında müxtəlif uzağa gedən nəticə çıxarmaq, onu qədərindən artıq siyasiləşdirməyin adı yoxdur. Məsələnin real mahiyyəti bundan ibarətdir. Səbuhi Dünyamalıyev əl-üz dəsmalı ilə özünə qəsd edib. Əlbəttə, təəssüf doğurur və hamını narahat edir. Məndə olan məlumata görə, onun yaxın qohumlarından da bu məsələ ilə bağlı açıqlamalar veriləcək".

**Deputat Tərtərin çox həssas bölgə olduğunun nəzərə alınmasının vacibliyindən də danışdı:** "Faktiki olaraq Qarabağın daha böyük hissəsi işğal altına düşdüyündən hazırda Azərbaycanın nəzarətində olan Tərtər kimi ərazilərdə əhalinin daha çox məskunlaşması üçün sosial problemlərin həlli istiqamətində dövlət tərəfindən güclü işlər həyata keçirilməkdədir. Xüsusilə də son 3-4 ildə Tərtərin bütün su sistemlərinin, məktəblərinin və digər ictimai iaşə və sair xarakterli binaların hamısının bərpası istiqamətində işlərin şahidi olmuşuq. Şübhəsiz ki, orada daim təmas xəttində olmaq sanki ermənilərlə mənəvi-psixoloji savaşı hər zaman özündə hissə elətdirir. Bilmək mümkün deyil ki, bəzən düşmən kəşfiyyatı mülki insanlar içərisində necə işləyir. Mən 4 fevral hadisəsini nəyəsə bağlamıram. Qarabağda ermənilər içərisində ciddi toqquşmalar var, bu narazılıq dalğasını cəbhə xəttindəki bölgələrimizə yeritmək kimi versiyaları işə salmaq istəmirəm. Düşünürəm ki, bu, məsələni fərdi mahiyyətdən çıxarıb ictimailəşdirmək və başqa səmtə yönəltmək demək olardı. Özüm də o mövqedən daşınıram. Spontan olaraq baş vermiş hər hansı bir hadisə halında, kütlələrin azarkeş kimi toplandığı yerlərdə hansısa hadisələr baş verə bilir. O cümlədən müxtəlif dini təmayüllər elə Tərtərdə də, digər bölgələrdə də özünə kök salıblar. Bunu danmaq olmaz. Ancaq hər hansı bir insanın sadəcə inancını əsas götürüb onların qapısını döymək, polis orqanlarına gəlməyə vadar eləmək də bir tərəfdən dini etiqada qarşı basqı sayılacaq, ikincisi, media bunun ətrafında böyük kampaniyalar başladacaq, üçüncüsü isə düşmən dairələr elə bunu gözləyirlər ki, vətəndaşlar arasında toqquşma olsun. Ona görə də hadisənin qiymətini verərkən hər birimiz elə mövqe tutmalıyıq ki, bu məsələlərdən kimlərsə bəhrələnməsin".

❑ Etibar SEYİDAĞA

# Tərtər və Ucar polisində nə baş verib?

## Ucarda 15 nəfərin saxlanılması xəbəri var; DİN rəsmi məlumat yaydı

**Tərtər Rayon Polis Şöbəsinin müvəqqəti saxlama təcridxanasında saxlanılan şəxs intihar edib. Tərtər Rayon Polis Şöbəsindən APA-ya verilən xəbərə görə, narkotik maddələrin qanunsuz dövriyyəsində təqsirli bilinən Ağdam rayon sakini, 1982-ci il təvəllüdlü Səbuhi Zamin oğlu Dünyamalıyev saxlanıldığı kamerada özünü asıb. Hadisədən dərhal sonra S.Dünyamalıyevin qohumlarının bir qrupu Tərtər Rayon Polis Şöbəsinə gəliblər, onlar yaxınlarının özünə qəsd etməsinə qəzəbli olduqları üçün yaranmış insidentdə polislər də daxil olmaqla, bir neçə nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb. Polis şöbəsinin binasına da zərər dəyib.**

Daha sonra polis S.Dünyamalıyevin qohumlarına vəziyyəti izah edib və insident həllini tapıb. Virtualaz.org-un əldə etdiyi məlumata görə isə Dünyamalıyev təcridxanada məruz qaldığı işgəncələrdən ölüb. Bu da onun qohumlarını və yaxınlarını qəzəbləndirib. Onlar polis şöbəsinə hücum ediblər. Polis şöbəsinin ətrafında təxminən 500 nəfərlik kütlə olub. Asayişi təmin etmək üçün Tərtərə qonşu Goranboy və Bərdə rayonlarından əlavə polis qüvvələri cəlb olunub. Rayonda gərginlik yaşanıb. Yerli polis etirazçı kütlə ilə bacarmadığı üçün rayona xüsusi təyinatlılar yeridilib.

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Ehsan Zahidov "qafqazinfo"ya açıqlamasında bildirib ki, Ağdam rayon sakini, 1982-cil il təvəllüdlü Dünyamalıyev Səbuhi Zamin oğlu bir müddət öncə narkotik vasitə ilə saxlanılıb:** "Tərtər Rayon Polis Şöbəsinin müvəqqəti saxlanma yerində mələfə ilə dəmir barmaqlıqdan özünü asaraq intihar edib. Meyit məhkəmə tibbi ekspertiza və həkim ekspertizasından keçirilib. Nəticələr barədə mərhumun qohumlarına və ictimaiyyətə məlumat veriləcək. Hadisədən sonra qohumları şöbənin qarşısına toplaşıb. Onlara hər şey izah olunandan sonra dağılışıblar. Hazırda məsələ ilə bağlı rayon prokurorluğunda və rayon polis şöbəsində araşdırmalar aparılır. Araşdırmalara başa çatandan sonra daha geniş və ətraflı məlumat veriləcək. Həmin şəxsə işgəncə verilməsi, döyülməsi haqda deyilənlər yalandır".




**"Polis şöbəsində quraşdırılan videokameranın görüntülərindən araşdırmada istifadə oluna bilərmi" sualına DİN rəsmisi belə cavab verib:** "Daxili İşlər Nazirliyinin bütün qurumlarındakı saxlanma yerləri müasir standartlara uyğunlaşdırılıb. Rayon polis şöbəsində quraşdırılan videokameranın görüntülərindən istifadə olunub-olunmayacağı haqda rayon prokurorluğunun araşdırmaları başa çatmamış bir söz deyə bilmərəm".

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Tərtərdə baş verən fakt üzrə Tərtər Rayon Prokurorluğunda cinayət işi başlanıb:** "Daxili İşlər Nazirliyinin aidiyyəti xidmətləri rayona ezam olunub, araşdırma aparılır. Araşdırmanın nəticəsi barədə yaxın günlərdə KİV-ə və ictimaiyyətə rəsmi məlumat veriləcəkdir".

**Fevralın 4-də bir qrup Ucar sakini Rayon Polis İdarəsinin qarşısında aksiya keçirib. Arqument.az xəbər verir ki, bu barədə Taleh Xasməmmədov facebook hesabında məlumat yayıb. O bildirib ki, aksiyaya səbəb Ucar Rayon Polis İdarəsinin rəisi Tahir Quliyevin qohumu, Narkotik Ticarətinə qarşı Mübarizə bölməsinin rəisi Eldəniz İsmayılovun sakinləri təhqir etməsi olub:** "Aksiyadan sonra Eldəniz Quliyev vəzifəsindən azad edilib, 15 nəfər aksiya iştirakçısı həbs edilib". Saytın əməkdaşı Ucar Rayon Polis İdarəsindən hadisə ilə bağlı açıqlama almaq istəsə də, bu barədə danışmaq istəməyiblər.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 27 (6055) 6 fevral 2015



# Pul azalır, həyat absurdlaşır

Zamin HACI
zaminhaci@gmail.com

**Həyat həmişəki kimi bizim fantaziyalarımızdan güclüdür. Ağlasığmaz işlər olur. Misal üçün, hazırda Ağır Cinayətlər Məhkəməsində bir Türkiyə vətəndaşının işinə baxırlar. O, 73 kilo heroini İrandan Avropaya aparmaq cəhdində suçlanır. AzadlıqRadiosunun xəbərinə görə, sürücü Astara və Biləsuvar gömrük-sərhəd məntəqələrini sərbəst keçib.**

Yalnız Gürcüstanla sərhəddəki "Sınıq körpü" postunda bunu tuta biliblər. İşin kinokomediyalara mövzu olacaq süjeti isə bilirsiniz nədədir? Sürücü özü də gömrükçülərə qoşulub narkotiki axtarırmış! Məhkəmədə səslənənlərə görə, gömrükçülər maşının boş gəlib-getməsindən şübhələnib onu hərtərəfli, hətta narkotik iyi bilən itlərlə axtarıblar, ancaq heç nə tapılmayıb. Sürücüdən sitat: "Üç gömrük postunda dəfələrlə axtarılan yük yerindən heç nə tapmamaları özümdə də şübhə yaratdı. Düşündüm ki, bəlkə məni aldadıblar, heç narkotiki yükləməyiblər. Gömrükçülərə bildirdim ki, maşına narkotik yüklənib, necə yəni yoxdur".

Normal dövlətdə bundan gömrükçülərlə sürücü arasında "bazarlığın" nəticəsi *(cinayəti etiraf etmək yüngülləşdirici hal sayılır)* kimi şübhələnmək olardı, ancaq bura Azərbaycandır. Burda nə desən olar.

Başqa bir əcaib hadisə Sumqayıtda uşağı oğurlanan qadının işindədir. Yəqin bunu xatırlayırsınız, keçən ilin ən şok işlərindən biri olmuşdu. Ana qucaqdakı körpəsini müvəqqəti saxlamaq üçün parkda bir qadına vermişdi, qadın körpəni oğurlamışdı. Sonra oğru tapıldı, etiraf elədi ki, 10 ildir uşağı olmur, körpəni övlad həsrəti ilə aparıbmış. İndi bu cinayət işi yekunlaşıb, prokuror oğru qadına 12 il həbs istəyib. Uşağı oğurlanan ana isə deyir bu azdır, ağır cəza verin. İşin ən dəhşətli detalı isə bu amansız münasibət deyil. Sən demə, bu "ana" polisin tapıb qaytardığı həmin körpəni sonra... uşaq evinə veribmiş! Deyib imkanım yoxdur, saxlaya bilmirəm. Təsəvvür edirsinizmi? Biri uşaq həsrətində, 12 il həbs cəzası alır, o biri hadisəyə səbəb uşağı internata atır. Bunun əsas səbəbi odur ki, ölkədə normal dövlət mexanizmləri yoxdur. İnsanlar sivil şəkildə övladlığa uşaq götürə bilmir. Övladlığa götürülən uşaqlara sonradan nəzarət mexanizmləri yoxdur. Nəticə də yuxarıdakı faciəvi mənzərədir.

Uşaqlı-böyüklü, dirili-ölülü hər kəs bir gün öz absurdu ilə qarşılaşmağa məhkumdur. Keçən il Şəki Apelyasiya Məhkəməsinin hakimi Hümbət Səlimovun çıxartdığı bir əcaib qərardakı kimi. Əhvalatın qısa məzmunu belə idi: bir kişi ölüb, bacıları bunu Bərdədə dəfn ediblər. Ancaq sonra keçmiş arvadı ortaya çıxıb, deyib kişinin şifahi vəsiyyəti var, gərək onu Ağdaşda basdıraq. İş çıxıb məhkəməyə. Hümbət əkə isə qərar verib ki, ərin meyiti arvadın mülkiyyətidir, hara istəsə apara bilər. Yəni meyiti çıxardıb aparmaq lazımdır. Hümbət əkənin qərarı ilə arvadın ixtiyarı vardı ərinin meyitini çəlləkdə turşuya qoysun.

Sonra bilmədim əhvalat necə qurtardı. Mərhumun öləndən sonra bu qədər hörmətə minməsi də maraqlı idi. Elə bil övliya-filan imiş. Kim bilir... Bəlkə də onun qəbrindən pir, ocaq, televiziya studiyası kimi yararlanmaq imkanları varmış. Yoxsa davanın mənası nədir? O boyda Eynşteyni yandırıb külünü havaya sovurublar, heç qəbri yoxdur.

Sonda daha bir gülünc məsələ haqda: "Bakı" adında futbol klubu var, nəqliyyat nazirinin qara-qura pulları ilə saxlanırdı. İndi bu klubda vəziyyət gərgindir, maaşları verə bilmirlər, Hafka ilə Anar dalaşır, az qalıb bir-birini Biləcəri deposunda qatarın altına atsınlar. "Bakı" klubu yalan olmasın, bağlanmaq üzrədir. Səbəb əslində sadədir: neft şprisi boşdur, süni şişirdilmiş futbol klubları çökür. Ancaq karikatur cəhət odur ki, burda klub saxlaya bilməyən məmurlar xaricdə klub alırlar. Daha doğrusu, "alırdılar". Getdi o günlər. Onun-bunun yaxasına ad yazdırmağa pul yoxdur.

# Avropa Birliyi rəsmi Bakını Riqa sammitinə görə sıxır

## Yunanıstan SOCAR-ın yarım milyardlıq sövdələşməsində son sözün yenə də AB-nin olacağını bəyan edib; Azərbaycan hakimiyyətinin may ayınadək vaxtı var



**Yunanıstanın yeni hökuməti bu ölkədə qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətinin səhmlərinin üçdə ikisinin SOCAR-a satılmasına dair 2013-cü ilin yayında imzalanmış 450 milyon avroluq sövdələşməyə qarşı çıxmasından sonra yaranmış müəmma davam edir.**

Yunanıstanın yeni hökumətində enerji və ətraf mühit naziri portfeli almış Panayiotis Lafazanis fevralın 4-də Azərbaycanın Afinadakı səfiri Rəhman Mustafayev və SOCAR-ın törəmə şirkəti olan "Socar Energy Greece"in baş icraçı direktoru Anar Məmmədovla görüşüb.

Yunan mənbələrinə istinadən verilən xəbərə görə, görüşdə "Şahdəniz" qazının Yunanıstan üzərindən Avropaya nəqli layihəsi və SOCAR-ın DESFA-nı almasına dair müqavilə ətrafında müzakirələr gedib.

P.Lafazanis deyib ki, (virtualaz.) yeni hökumət Azərbaycan qazının Avropaya nəqli üçün nəzərdə tutulan Transadriatik Qaz Kəməri (TAP) layihəsini dəstəkləyəcək, ancaq o şəkildə ki, Yunanıstanın bu layihədən əldə edəcəyi fayda maksimum artsın.

DESFA şirkətinin səhmlərinin SOCAR-a satılmasına gəldikdə isə Lafazanis bildirib ki, hökumət əvvəlki kimi bu sövdələşməyə dair Avropa Birliyinin Rəqabət Komissiyasının qərarını gözləyir və yalnız bundan sonra növbəti addımlarını müəyyən edəcək. Göründüyü kimi, Yunanıstan hökuməti müqaviləyə dair son sözün Avropa Birliyinin olacağını bildirib.

Yada salaq ki, Yunanıstan hökuməti ölkənin nəhəng məbləğdə xarici borclarını azaltmaq və defolt təhlükəsindən xilas olmaq üçün dövlət əmlakının özəlləşdirilməsi proqramı çərçivəsində DEPA şirkətini satışa çıxarmışdı. Bu şirkətin satışına dair tenderdə əvvəlcə Rusiyanın "Qazprom" şirkəti əsas iddiaçı idi, SOCAR da DEPA-nın səhmlərini almağa iddia edirdi. Lakin daha sonra SOCAR bu niyyətindən imtina edib Yunanıstanın qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətini almağa qərar verdi. SOCAR 2013-cü ildə DESFA şirkətinin səhmlərinin üçdə ikisini 450 milyon avroya almaq barədə sövdələşmə bağladı.

SOCAR-ın DESFA-nın səhmlərini alması ona Avropaya qaz nəqli və satışında əlavə üstünlüklər vəd edirdi. Lakin ötən il noyabrın əvvəlində Rəqabət Komissiyası bəyan edib ki, sövdələşmənin Avropa Birliyinin antiinhisar normalarına zidd olduğuna dair ciddi şübhələr var. Çünki SOCAR DESFA-nı alsa, Yunanıstan qaz bazarında inhisarçıya çevrilə bilər. Bununla da şirkət Yunanıstana nəql etdiyi qazı DESFA üzərindən sataraq bazarda rəqabəti əngəlləmək imkanı əldə edəcək.

Belə bir problem yaranmasını bəzi ekspertlər Azərbaycana qarşı sanksiya xəbərdarlığı kimi qiymətləndirmişdi. İddia olunurdu ki, bu ləngimə Avropa Birliyinin rəsmi Bakının siyasətindən narazı olmasına işarədir. O da vurğulanırdı ki, müqavilənin təsdiqlənməsi qarşıdakı aylarda Azərbaycan hakimiyyətinin xüsusilə insan haqları ilə bağlı tutduğu mövqedən də asılı olacaq.

Doğrudur, bəzi ekspertlər bu ləngimə məsələsində siyasi motivlərin olmadığını iddia edirlər. SOCAR prezidenti Rövnəq Abdullayev də Avropa Birliyinin Rəqabət Komissiyasının iradları və tərəddüdlərini şərh edərkən bildirmişdi ki, DESFA-nın səhmlərinin alınması daha çox Avropanın maraqlarına uyğun idi və əgər bu sövdələşmə təsdiqlənməsə Azərbaycan heç nə itirməyəcək.

Amma son qərarın yenə də Avropa Birliyinin Komissiyasının qərarına bağlanması bu məsələdə ciddi siyasi motivlərin olduğunu göstərir.

Bəzi mənbələrin xəbərinə görə, Avropa Birliyinin komissiyası sövdələşməyə dair qərarı qurumun bu ilin mayında Riqada keçiriləcək sammitinə qədər uzada bilər. Yanvar ayında Bakıda səfərdə olan Latviyanın dövlət katibi Adriys Pildeqoviç də hakimiyyətə mühüm mesajlar verib. Dövlət katibi Avropa İttifaqının bu ilin mayında keçiriləcək toplantısına toxunaraq bildirib ki, təşkilatçılar Azərbaycanın müzakirələrdə yüksək səviyyədə iştirakını gözləyirlər. Bununla artıq nəçənci dəfədir Azərbaycana mesaj ünvanlanır ki, Avropa Birliyi Azərbaycanla münasibətlərdə daha geniş əməkdaşlığı istəyir. Amma rəsmi Bakı dəfələrlə bəyan edib ki, təşkilatla geniş əlaqələrə getmək niyyətində deyil. Azərbaycan Avropa İttifaqı ilə yalnız heç bir öhdəlik vəd etməyən "strateji əməkdaşlıq və modernləşdirmə" layihəsini təklif edir. Azərbaycanın Avropa Birliyi ilə münasibətlərinin necə inkişaf edəcəyi böyük ölçüdə Riqa sammitində müəyyənləşəcək.

Azərbaycan hakimiyyəti də bu məsələdən ciddi siyasi motivləri olduğu qənaətindədir. İqtidarın nəzarətində olan media orqanlarının Yunanıstanın yeni hökumətinin bu addımını sərt tənqid etməsi də belə rəy yaradır. Hökumət mediası Yunanıstanın Avropa Birliyinin qərarını gözləməsini də təsadüfi saymır.

Qeyd edək ki, Azərbaycan və Avropa İttifaqı (Aİ) ötən il noyabrın 29-da viza rejiminin sadələşdirilməsi haqqında saziş imzalayıb. Vilnüsdə keçirilən III "Şərq Tərəfdaşlığı" sammiti çərçivəsində sazişi Azərbaycan tərəfdən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, qarşı tərəfdən isə Avropa komissarı Ştefan Füle, Litvanın xarici işlər naziri Linas Linkyavičyus imzalayıb. Sazış artıq qüvvəyə minib.

### SOCAR "Petkim"dəki səhmlərinin bir qismini niyə satır?

Bu arada SOCAR-ın Türkiyədəki ən böyük aktivi olan "Petkim" Neft-Kimya Holdinqinin hissələrinin 3,4%-nı satışa çıxarması ilə bağlı xəbərlər yayılıb. Bəzi mənbələr bunu şirkətin neftin qiymətinin düşdüyü bir vaxtda gerçəkləşməsini təsadüf hesab etmir. SOCAR fevralın 5-də bununla bağlı rəsmi açıqlama yayıb.

SOCAR-dan "APA-Economics"ə verilən məlumata görə, satış əməliyyatı ABŞ-da yerləşən və beynəlxalq bazarlarda investisiya həyata keçirən xarici fondlara 4 türk lirəsi məbləğində vahid qiymətlə gerçəkləşdiriləcək. Əməliyyat Türkiyədə xarici hissə vasitəçiliyi sahəsində böyük nüfuz qazanmış "Ünlü&Co" şirkəti tərəfindən İstanbul Birjasının Topdansatış Bazarında icra olunacaq.




"SOCAR Türkiyə" şirkətinin baş icraçı direktoru Kənan Yavuz satışla bağlı açıqlamasında bildirib ki, bu əməliyyat xarici investorların SOCAR və "Petkim"ə göstərdikləri yüksək etimad və etibarın göstəricisidir: **"Bu hissələr 2009-2010-cu illərdə investisiya məqsədilə İstanbul Birjasından o zaman üçün çox ucuz hesab etdiyimiz 2.10 türk lirəsinə alınıb və buna görə də indiki satış əməliyyatından əhəmiyyətli bir ticari gəlir əldə olunacaq".**

İcraçı direktor satışın birja əməliyyatlarında yer alan hissələrdən edildiyini, SOCAR-ın "Petkim"dəki mövcud sahiblik statusunda hər hansı bir dəyişiklik yaratmadığını qeyd edib.

"Petkim"in hissələri ötən il İstanbul birjasında ən böyük 30 şirkət arasında ən yüksək dəyər artımına nail olması ilə diqqət çəkib. Xarici fondların "Petkim" hissələrini birjada son 7 ildəki ən yüksək qiymətə (4 türk lirəsinə) almaq istəyi bazarda holdinqin perspektivinə bəslənən etimadın bariz nümunəsi kimi dəyərləndirilir.

❑ Xəbər xidməti

**ABŞ-Azərbaycan münasibətlərində son yarımildə müşahidə olunan gərginliyin, daha çox mətbuat yazıları səviyyəsində qarşılıqlı ittihamların yerini daha mülayim atmosfer əvəzləyib. Xüsusilə də son bir həftə ərzində Amerikanın aparıcı media orqanlarında Azərbaycanın təbliğinə yönəlik yazıların dərci, eyni zamanda Bakıdakı rəsmi qəzetlərin anti-Amerika yazılarına moratorium qoyması diqqəti cəlb edir.**



# Azərbaycan lobbisinin Amerikada hərəkətə keçməsinin pərdəarxası

## Prosesin ikitərəfli münasibətlərə töhfə verəcəyini düşünənlər də var, əks mövqedə olanlar da...

Digər tərəfdən, Azərbaycanın böyük bir nümayəndə heyəti okeanın o tayına səfər edib və davamlı görüşlər keçirməkdədir. Bugünlərdə ABŞ-ın nüfuzlu qəzetlərindən biri olan "Vaşinqton Tayms"ın təşkilatçılığı ilə Vaşinqtonda ABŞ Konqresinə məxsus Kapitol Hil Klubunda "Xəzər dənizi hövzəsində geosiyasət: ABŞ-Azərbaycan müttəfiqliyi nə üçün əhəmiyyətlidir?" mövzusunda tədbir keçirilib. Hesab olunur ki, bu tədbir ABŞ-dakı Azərbaycan dinləmələrinin və ölkəmizə qaşrı sanksiya tətbiqi barədə təşəbbüslərin cavabıdır. Yeri gəlmişkən, bundan öncə Bakıda Amerika dinləmələri də keçirilmişdi. Ancaq indi sərt ritorikadan əsər-əlamət yoxdur.

"Vaşinqton Tayms" qəzetinin redaktoru Con Solomonun moderatorluq etdiyi tədbirdə isə müvafiq ardıcıllıqla Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov, Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və onun deputat həmkarı, Demokratik İslahatlar Partiyasının (DİP) sədri Asim Mollazadə məruzə ilə çıxış edib. A.Mollazadə Avrasiya regionunda cərəyan edən hadisələrlə bağlı da öz fikirlərini bölüşüb. O, Azərbaycan-İsrail münasibətlərinin inkişafından söz açıb, Bakı-Tbilisi-Qars dəmir yolu daxil olmaqla, regional nəqliyyat şəbəkəsinin təsis edilməsi üçün aparılan fəaliyyətləri təqdim edib, həmçinin Əfqanıstan məsələsində Azərbaycanın önəmindən bəhs edib. Səməd Seyidov isə deyib ki, Vaşinqton regionu itirə bilər: **"Cənub Qaz Dəhlizi təkcə neft və qaz koridoru deyil, bu həm də azadlıq koridorudur".**

Paralel olaraq Azərbaycan Milli Məclisinin deputatı Yevda Abramov, Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov və Dağ Yəhudiləri sinaqoqunun ravini Avraam Yakubov fevralın 3-də Los Anceles şəhər şurasının üzvü Paul Koretzlə görüşüb. Görüşdə Azərbaycanın tolerantlıq ənənələri, bu sahədə hazırda oynadığı nümunəvi rol, ölkə rəhbərliyi tərəfindən bütün dini icmalara göstərilən qayğı, eləcə də Azərbaycanın qədim yəhudi icmasının tarixi və bu gün ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşaması əsas müzakirə mövzusu olub. Bütün bu fəaliyyət Azərbaycan lobbisinin Amerikada hərəkətə keçməsi və münasibətlərdə yeni mərhələnin başlanmasının əlaməti kimi dəyərləndirilir.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu bu barədə danışarkən qeyd etdi ki, prosesdə kimin iştirakından asılı olmayaq bu, lobbi fəaliyyətidir:** "Lobbiçilik fəaliyyəti haqda Amerika Yəhidi Komitəsinin icraçı direktoru Devid Harrisin səfəri ilə bağlı da demişdim. Lobbi fəaliyyəti müəyyən ziddiyyətləri aradan qaldıra bilər. Amma ziddiyyətlər prinsipial xarakterlidir, düşünmürəm ki, bunu lobbiçilərin təsiri ilə aradan qaldırmaq olar. Əgər söhbət Azərbaycanın xarici siyasət kursundan və bu kursun daha çox Rusiyaya meyllənməyindən gedirsə, ABŞ institutlarının Azərbaycandakı fəaliyyətinin qadağan olunması, onlara qarşı cinayət işinin açılması, Azərbaycanın yüksək çinli rəsmilərinin ABŞ əleyhinə ağır ittihamlar səsləndirməsindən gedirsə, lobbi bunu aradan götürmək gücündə deyil. Rəsmi Bakı bu mövqedən çəkilməsə, düşünmürəm ki, lobbiçilər vəziyyəti düzəldəcək". **Politoloq deyir ki, burada prinsipial mövqe olmayınca lobbiçilik fəaliyyəti boş şeydir:** "Son vaxtlar rəsmi Bakının lobbiçilik fəaliyyətinə önəm verməsi, bunu hücum şəklində həyata keçirməsi göstərir ki, Azərbaycan hakimiyyəti ABŞ siyasətində çox ciddi səhvlərə yol verib. Halbuki vaxtilə biz də deyirdik ki, bu cür səhvlərə yol verməK olmaz".

**XİN-in mətbuat katibi Hikmət Hacıyev hesab edir ki, məsələyə təkcə ABŞ-Azərbaycan əlaqələri kontekstində baxılmamalıdır:** "Ümumiyyətlə, ictimai diplomatiya və Azərbaycan həqiqətlərinin dünya ölkələrinə, o cümlədən ABŞ-a təqdim olunması fəaliyyətimizin vacib tərkib hissələrindən biridir. Bu xüsusda da ABŞ-ın media orqanlarında Azərbaycan tərəfindən fəal iş aparılır. Burada da əsas məqsədimiz Ermənistanın Azərbaycana qarşı təcavüzü və bu təcavüzün nəticələrinin Amerika ictimaiyyətinə, həmçinin dünyanın digər auditoriyalarına çatdırılmasından ibarətdir. Bunu hər hansı konkret müstəviyə salmaq istəməzdim. Bu, bizim fəaliyyətimizin tərkib hissəsidir. Son hadisələr də ümumi prosesin tərkib hissəsi olaraq həyata keçirilir".

**Bəs intensivləşən bu təmaslar iki dövlət arasındakı soyuq münasibətlərin aradan qaldırılmasına gətirib çıxaracaqmı? H.Hacıyev:** "Azərbaycanın müstəqilliyinin ilk illərindən ABŞ-la Azərbaycan arasında normal diplomatik münasibətlər var. Bu əlaqələr kifayət qədər təkmil münasibətlər xarakteri daşıyır. Sadəcə olaraq, bizim məqsədimiz daha geniş şəkildə ABŞ ictimaiyyətinin bütün dairələri və geniş ictimaiyyəti tərəfindən Azərbaycan həqiqətlərini bilməsidir".

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov rəsmi Bakının Vaşinqtonla münasibətlərində problem görmür:** "Bizim onlarla münasibətlərimiz həmişə yaxşı olub. O mənada ki, biz tərəfdən heç bir problem olmayıb. Həmişə antiterror əməliyyatlarında iştirak məsələsində, həm də Əfqanıstana hava yolunun verilməsində, qoşun və silahların daşınmasında, ümumiyyətlə, bütün mənalarda Azərbaycan ABŞ-a özünün xoş münasibətini bildirib. Təəssüf ki, son zamanlar bir qrup ABŞ-da olan QHT rəhbərləri, bəzi adamlar erməni lobbisinin təhriki ilə Azərbaycana qarşı müxtəlif bəyanatlar səsləndirirdilər, Azərbaycanda gedən proseslərə, ölkəmizdə keçirilməsi gözlənilən tədbirlərə kölgə salmağa çalışırdılar. Bu da sırf erməni lobbisinin təhriki ilə olan məsələ idi. Çünki həmin təşkilatların İdarə Heyətində ermənilər təmsil olunur, bunlar da onlardan maliyyə dəstəyi alır. Ona görə də həmin təşkilatlarla bir gərginlik var idi".

**S.Novruzov artıq münasibətin dəyişməkdə olduğunu düşünür:** "Təbii ki, onlar da başa düşürlər ki, Azərbaycanın mövcud vəziyyəti, Azərbaycanın regionda əhatə olunmuş dövlətlərin hansı gücə malik olması, həmçinin ölkənin 20 faiz ərazisinin işğal olunmasını nəzərə almaq lazımdır. Buna baxmayaraq, Azərbaycanda iqtisadi inkişaf, ictimai-siyasi sabitlik var, bütün proseslər gedir. Odur ki, tədricən öz münasibətlərini erməni lobbisinin təhriki ilə yox, özlərinin düşündüyü formada qurmağa çalışırlar".

❑ **E.PAŞASOY**

# Rusiyaya qarşı sanksiyalar genişləndirilir

**Avropa Birliyi ölkələri 5 Rusiya vətəndaşı və 9 təşkilat da daxil olmaqla, daha 19 nəfərə qarşı sanksiyalar tətbiq etmək razılığına gəliblər. Bu barədə Qərb agentlikləri diplomatik mənbələrə istinadla xəbər verirlər. ("Azadlıq" radiosu).**

Hələlik onların adları açıqlanmayıb.

Amma "Reuters" agentliyi diplomatlara istinadla onların arasında yüksək səlahiyyətli və ya tanınmış şəxslər olmadığını xəbər verir. Sənədin Avropa Birliyi ölkələri xarici işlər nazirlərinin fevralın 9-da Brüsseldə keçiriləcək görüşündə təsdiqi gözlənilir.

# Zopa siyasəti



**Azər RƏŞİDOĞLU**

**"1992-93-cü illər ərzində ölkədə dərəbəylik idi. İnsanlar küçəyə çıxmağa qorxurdu". Hakimiyyət ideoloqlarının sevdiyi bu tezis artıq aktuallığını itirir. İndi məhkəmə salonları, polis şöbəsi, səhiyyə ocaqları, həbsxanalar da əminlik yerləri olmaqdan çıxmaq üzrədir.**

Son günlər ölkədə baş verənlər keyfiyyətcə yeni münasibətlər sisteminin formalaşmasının xəbərçisi hesab edilə bilər. Bu dəfə küçələr deyil, dövlət orqanları vətəndaşların təhlükəsizliyinə təminat verə bilmir.

Bugünlərdə Balakən Rayon Məhkəməsində zərərçəkmiş şəxslərdən biri üstündə gəzdirdiyi bıçaqla təqsirləndirilən şəxsi öldürüb. Məhkəmə iclasında belə halın baş verməsinə nə ad vermək olar?

Digər bir fakta nəzər edək. Tərtər Rayon Polis Şöbəsinin müvəqqəti saxlama təcridxanasında saxlanılan şəxs intihar edib. Onun öldürüldüyünü iddia edən qohumlarının bir qrupu Tərtər Rayon Polis Şöbəsinə gəliblər. Yaranmış insidentdə polislər də daxil olmaqla, bir neçə nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb.

Bir sıra KİV-in məlumatına görə isə həmin şəxs təcridxanada məruz qaldığı işgəncələrdən ölüb. Bu onun qohumlarını və yaxınlarını qəzəbləndirib.

Asayişi təmin etmək üçün Tərtərə qonşu Goranboy və Bərdə rayonlarından əlavə polis qüvvələri cəlb olunub. Rayonda gərginlik hələ də səngiməyib.

Yerli polis etirazçı kütlə ilə bacarmadığı üçün rayona xüsusi təyinatlılar yeridilir.

Daha bir fakt. Nizami rayonu ərazisində yerləşən 26 saylı Şəhər Poliklinikasında müalicə almış bir xanım ora gələrək özünün xəstəlik tarixçəsini almaq istəyib. Baş həkim Pənah Əliyev söhbətə müdaxilə edib, qadını ağır ifadələrlə təhqir edib. Bununla kifayətlənməyən Pənah Əliyev qadını hamının gözü qarşısında döyməyə başlayıb. Baş həkimin zərbələrindən huşunu itirən qadın yerə yıxılıb. Səhiyyə ocağında şəfa ardınca gələn vətəndaş sağlamlığını itirib.

Son günlərin ən qalmaqallı hadisəsi, Şəmkir RİH-in sabiq başçısı Aslan Aslanovun çoxsaylı qurbanlarından biri olan Lamiyə Quliyevanın müəmmalı şəkildə dünyaya uşaq gətirməsi, onun A.Aslanovun göstərişi ilə zorlandığı barədə yayılan söz-söhbətlər, Penitensiar Xidmətin rəisi Mədət Quliyevin açıqlamaları, yetkililərin "süni mayalanma" barədə dedikləri həbsxanalarda dəhşətli cinayətlərin baş verdiyini ehtimal etməyə əsas verir.

Bütün baş verənlər bir tendensiyadan xəbər verir - məmurlar sıravi vətəndaşı ən axırıncı sort varlıq kimi dəyərləndirirlər.

Etiraz edən hər kəsi zopa ilə döymək, şikəst eləmək uzun müddət davam edə bilməz. Müttəhim məhkəmədə, təqsirli bilinən şəxs polis idarəsində, məhkum həbsxanada, xəstə səhiyyə ocağında təqiblərə məruz qalırsa, deməli, qanunlar işləmir. Bu fakt isə vətəndaşda dövlətə olan inamı sarsıdır.

Məmur özbaşınalığına etiraz edən, haqqını tələn edən insanlarla "zopa dili"ndə danışmaq yolverilməzdir. Məmur özbaşınalığının qarşısını almaq lazımdır, buna etiraz edəni döyərək şikəst etmək yox. Elə belə məmur özbaşınalığının nəticəsidir ki, ölkədə az qala "Lamiyə inqilabı" baş verir. Harın, quduğan bir məmurun ərköyün oğlunu qanunlardan uca tutmasına görə kimlərsə cəzalanmalı olur. Bu gün adi bir təqaüdçü olan, Şəmkirdə az qala ucdan tutma hamının nifrətini qazanmış A.Aslanov kimilərin yeri rahat villaları deyil, elə onun sifarişi ilə ömürlük həbsə məhkum edilən Vüqar Əliyevin yanı olmalı idi.

Həbsxanalar harın məmurun gənc bir qadından qisas almaq yeri olmamalıdır. Əks halda, bütün ölkəni etirazlar bürüyəcək. Bu ölkədə adi bir rayon icra hakimiyyəti başçısı "səni həbsxanadan çıxmağa qoymayacağam" deyir və özü təqaüdə çıxandan sonra da buna nail olursa, kim bu ölkədə yaşamaq istəyər?

Əgər Lamiyənin həbsxanada harın məmurun sifarişi ilə zorlandığı və uşaq doğması sübuta yetirilərsə, buna görə kim cavab verəcək? Yalnız general Mədət Quliyev, yoxsa əli hər yerə keçən A.Aslanov, yaxud ölkədə belə dözülməz vəziyyəti yaradanlar?

İstər məhkəmə zalındakı qətl, istər Tərtər Polis İdarəsində baş verən müəmmalı ölüm faktı, istər baş həkimin müalicəyə gələn xəstəni hamının gözü qarşısında döyməsi, istərsə də Azərbaycanı silkələyən qalmaqallı "Lamiyə işi" sıradan hadisələr deyil. Bunlara görə yeni, qalmaqallı həbslər baş verməli, 12 il həbs cəzası çəkən Lamiyə Quliyeva və Vüqar Əliyevin 2003-cü ildə A.Aslanovun sifarişi ilə baş tutan məhkəmə işinə yenidən baxılmalıdır...

YENİ MÜSAVAT
N 27 (6055) 6 fevral 2015



# Uşağın atasını axtarırlar, yoxsa gizlədirlər?

Xalid KAZIMLI

**Bəziləri ortalığa yeni ifadələr atıblar, etiraz edirlər: "Lamiyədən nə qədər yazmaq olar?"; "Bu mövzuda yaza-yaza "sarı mətbuat"a dönmüsüz"; "Əl çəkin o yazıq qızdan" və sair və ilaxır.**

1. Bu hadisədən və Lamiyənin taleyindən o vaxta qədər yazılacaq ki, həqiqət ortaya çıxacaq. Gənc və kimsəsiz bir qızın məhbəs divarları arasında hamilə buraxılması *(zorlama olayı olmasa belə)* sıradan bir olay deyil.

**2.** Bu, "sarı mətbuat"ın yemi olan mövzu sayılmaz. Onlar bu mövzuda yaza bilməzlər. Bu mövzuda çoxları yazmır, yaza bilmirlər. Çünki təhlükəli mövzudur, bir başı gedib yüksək mənsəbli şəxslərə çıxır.

**3.** Yazılan yazıların heç biri Lamiyənin və o hadisənin zərərçəkənləri olan şəxslərin "vurulması"na yönəlməyib, əksinə, onları müdafiə xarakteri daşıyır. Heç kəsə sirr deyil ki, bu qadın həbsxanaya düşən gündən cinsi zorakılığa məruz qalıb, ya da onu "könüllü" cinsi xidmət göstərməyə vadar ediblər.

**4.** Lamiyə cəzasını almış və çəkmiş sabiq cinayətkardır, onun müddətindən artıq həbsdə saxlanması qanunsuzdur, ədalətsizdir. Bu qadın siyasi vəzifə tutan şəxsin sifarişi əsasında, dövlət mundiri geyən adamların əliylə üç dəfə məhkum edilib.

**5.** Məhz bu amil Lamiyə Quliyevanın da artıq siyasi məhbus olmasını göstərir. Cəzasını çəkmiş bir qadını nahaqdan və yenidən həbsdə saxlamaq üçün iki dəfə şərləyiblər. Biri baş tutub, biri puç olub.

**6.** Ortada ciddi qisasçılıq aktı var. Sabiq İH başçısı və nazir müavini Aslan Aslanov oğlunun qatilinə dövlətin verdiyi cəzadan artıq cəza vermək, iztirab çəkdirmək istəyir və bu danılmaz faktdır.

**7.** Qisasçı atanın daha bir oğlu məhz qətl törətməkdə günahlandırılan şəxslərin işinə baxan nazirlikdə çalışır və onların gününün qara edilməsində o şəxsin də rolunun olması istisna deyil.

**8.** Baş vermiş cinayət hadisəsini ört-basdır etmək üçün cəmiyyətə və mediaya çoxlu yalanlar danışılır və bu göstərir ki, ortada bütün bu qanunsuzluqları həyata keçirən mütəşəkkil bir şəbəkə var. Hazırda onlar boğazlarına çıxmış sudan qurtulmaq üçün meymunluqlar edirlər.

**9.** Lamiyənin başına gələnlər Penitensiar Xidmətin müəssisələrində baş verən müxtəlif və silsilə cinayətlərin yalnız biridir. Bir xidmətdə ki, insanlar zorlanır, öldürülür, şikəst edilir, işgəncəyə məruz qalır, o xidmət cəmiyyətin diqqət mərkəzində olmalıdır.

**10.** Bu hadisəni hansısa sənət adamlarını evlənib-boşanması kimi qələmə verənlər bilməlidirlər ki, nə Lamiyə Hürrəm rolunun ifaçısı Məryəm Üzərlidir, nə də onun uşağının atası biznesmen Can Ateşdir. Burada hələ uşağın atasının axtarışı gedir və bu, həmin şəxsi axtarıb tapmaqdan çox, yaxşı yerdə gizlətməyə oxşayır.

**11.** Nə 2015 il əvvəlki zamandır, nə də Lamiyə müqəddəs Məryəm deyil ki, onun məchul səbəbdən hamilə qalmasına kimisə inandırmaq mümkün olsun.

**12.** 15 yaşlı şəmkirli qızın başına gələnlərdə cəmiyyətin mənəvi məsuliyyətinin nə dərəcədə olmasından asılı olmayaraq, bu məsələnin bu yerə gəlib çatmasında konkret cinayət məsuliyyəti daşıyan adamlar var və bu işdə birinci, ikinci, üçüncü, dördüncü və beşinci dərəcəli iştirakı olan təqsir sahiblərinin hamısı cəzalandırılmalıdır.

**13.** İşdə şəffaflıq yaradılmalıdır. Vüqar və Lamiyənin cinayət işinə yenidən baxılmalı, bütün xüsusatlar yenidən və tərəfsiz təhqiqatın materialı olmalıdır. V.Əliyevin tam təqsirsiz qohumlarının illərlə incidilməsinə, həbsə, zorakılığa məruz qoyulmasına görə hesab verilməlidir, təqsirkarlar cəzalarını almalıdırlar.

Göründüyü kimi, bu adi söhbət deyil, ciddi, aktual məsələdir. Bütün bu sadalananlara ədalətli yanaşma olmadan ölkədə qanunun aliliyindən danışmaq absurddur.

Dövlət təkcə cəza aparatı deyil, həm də qoruyucudur, himayədardır və o kimsəsiz uşaqdan tutmuş atılmış ahıllara, valideynindən ayırıb xidmətə apardığı əsgərindən tutmuş suç işlədiyinə görə dörd divar arasına saldığı məhbusuna qədər hamının toxunulmazlığına təminat verməlidir, cavabdeh olmalıdır.

Məhbəslərin zorakılıq yuvası olduğu çoxdan bəlliydi, bu hadisə onra görə bu cür böyük qalmaqal törətdi ki, zorlanmış kişilər uşağa qalmırlar.

# Deputatdan hökumətə antiböhran təklifləri

## Qüdrət Həsənquliyev: "Dövlət idarəetmə xərcləri azaldılmalıdır; ixtisarlara mütləq gedilməlidir"

**"Neftin qiymətinin aşağı düşməsi bizi əsas gəlir mənbəyindən məhrum edir. Əgər qiymətin düşməsi davam etsə, bu, çox böyük problemlər yaradacaq. Hələlik bizim müəyyən qədər valyuta ehtiyatlarımız var. Bu ehtiyatlar vəziyyətin defolt həddinə çatmamasına imkan verir. Amma son hadisələr göstərdi ki, biz qeyri-neft sektorunun inkişafı üçün yubanmadan islahatlar aparmalıyıq".**



Qüdrət Həsənquliyev

**BAXCP sədri, deputat Qüdrət Həsənquliyev** "Yeni Müsavat"a dünya bazarında neftin qiymətinin aşağı düşməsi şəaitində Azərbaycanı gözləyə biləcək təhlükələr barədə danışarkən bunları bildirdi. Partiya sədri ölkəmizin iqtisadiyyatının neft faktorundan çox asılı olmasına diqqət çəkdi: "Bizdə büdcə gəlirlərinin bir hissəsi körpülərin, yolların tikintisini aparan şirkətlərin vergiləridir, yəni o da birbaşa neftə bağlıdır. Neft olmasa o şirkətlər çalışa bilməyəcək və qeyri-neft sektoru dediyimiz həmin şirkətlərin vergiləri də yox olacaq. Kənd təsərrüfatı üçün kifayət qədər geniş, münbit ərazilərimiz yoxdur. Həm də iqlim şəraitimiz imkan vermir ki, biz bu sahədə Avropa ölkələri ilə rəqabətə davamlı girək, kənd təsərrüfatından gələn gəlir hesabına ölkənin müdafiə və təhlükəsizliyini təmin edə bilək. Burda yalnız sənaye qalır. Çox təəssüf ki, biz neftayırma zavodunu burda yox, İzmirdə tikdik, ora 20 milyarda qədər vəsait qoyacağıq. Hansı ki, onu Səngəçalda tikə bilərdik, xaricə də xam məhsul satardıq".

**Q.Həsənquliyev konkret digər məsələlərlə bağlı da antiböhran təkliflərini irəli sürdü:** "Fikir verin, indi avtomobillər üçün xaricdən gətirilən yağın litrini hətta 15-20 manata alırıq. Amma biz "boçka" nefti 50 dollara satırıq, yəni iki litrlik avtomobil yağının qiymətinə... Bəzi minik avtomobillərinin şinləri var ki, 1000-1500 manatdır. Yəni Bakıda müasir müəssisələr tikməklə burda onları istehsal edə bilərdik. Görün Türkiyədən nə qədər santexnika məhsulları, pəncərə materialları gətirilir. Bunların hamısını burda istehsal edə bilərdik, bu, on minlərlə yeni iş yeri olardı, vergi ödəmələri artardı. Biz xam neftdən çoxlu məhsullar istehsal etmək gücündəydik. Amma bu zavodları burda tikmədik. Gübrə zavodunu aparıb Gürcüstanda tikdik. Halbuki SSRİ dövründən Naxçıvanda tikilməsi planlaşdırılmışdı. Yəni biz vaxtında bu barədə düşünməliydik. Əlbəttə, müəyyən emal müəssisələri tikilib. Amma bunlar barmaqla sayılacaq qədərdir. Bu, həm 10 milyonluq bir ölkədə işlə təminata ciddi töhfə verə bilməz, həm də büdcə üçün zəruri vəsaitin toplanması üçün yetərli deyil. Bu baxımdan həm də iqtisadiyyat liberallaşdırılmalıdır. Bizdə dövlət investisiyaları daha çox abadlıq işlərinə, infrastruktur layihələrinə qoyuldu. Əlbəttə, bunlar da olmalıdır. Ancaq işlər paralel aparılmalı idi. Neft gəlirləri gəlməyə başlayanda biz vəsaitləri daha çox infrastruktur layihələri, yol tikintisi, abadlıq işlərinə xərclədik. Yəni gəlir gətirməyən sahələrə çox böyük vəsaitlər qoyuldu. Bəzən ehtiyac olmadan yeni nazirliklər üçün binalar tikildi".

**Q.Həsənquliyev hesab edir ki, təhükəni önləmək mümkündür:** "Hələ yenə də gec deyil. Yay Avropa Oyunları başa çatandan dərhal sonra hökumət ciddi şəkildə abadlıq işlərini dayandırmalıdır. Məsələn, bulvarın uzadılması işi dərhal dayandırılmalıdır. Ora çox böyük vəsaitlər gedir. İstismar müddəti başa çatmış, "Xruşşovka"lar deyilən köhnə binalar onsuz da söküləcək. Onların üzlənməsi üçün çox böyük vəsait xərclənir, bu işlər təcili dayandırılmalıdır. Eyni zamanda özəlləşdirilməyə getmədən biz qeyri-neft sektorunu inkişaf etdirə bilməyəcəyik. Bununla yanaşı, dövlət idarəetmə xərcləri ən azı 30 faiz azaldılmalıdır. Baxın, beynəlxalq birlik Ukraynadan tələb edir ki, iki istiqamətdə iş görülməlidir: korrupsiyaya qarşı mübarizə gücləndirilməli və idarəetmə xərcləri azaldılmalıdır. Pyotr Poroşenkonun hökuməti heç birini edə bilmir, qorxur ki, bu, ölkədə yeni siyasi böhrana səbəb olacaq və hakimiyyət dəyişikliyinə gətirib çıxaracaq. Səbəb odur ki, Kiyev hakimiyyəti güclü deyil. Azərbaycanda güclü hakimiyyət var və prezidentin güclü bir xarizması formalaşıb. Prezident öz komandasına nəzarət edə bilir. Hakimiyyətin məhz güclü olduğu belə bir dövrdə həmin islahatlara gedilməlidir. Ukraynada isə bu işləri görə bilmirlər. Özü də Beynəlxalq Valyuta Fondu bəyan edib ki, Kiyevə 17 milyard yardım edəcək, 5 milyard dollar miqdarında ilk tranş verilir, ancaq əlavə yardım islahatlar aparılacağı halda ayrılacaq. Lakin Ukrayna bunu edə bilmir, korrupsiyaya qarşı mübarizə haqda qanun qəbul olunsa da, komissiyanı belə formalaşdıra bilmirlər. Azərbaycanda isə güclü iqtidarın, güclü prezidentin zamanında müəyyən işləri görmək lazımdır ki, sonra çətinliklərlə üz-üzə gəlməyək". **Deputat deyir ki, dövlət idarəetmə xərcləri azaldılmalıdır:** "İcra hakimiyyəti və bələdiyyələrdə paralel strukturlar var. İcra strukturunda ixtisarlar aparılmalıdır. İxtisara düşən şəxslərə isə öz biznesini qurmaq üçün güzəştli kreditlər verilə bilər. İxtisarlara mütləq gedilməlidir, çünki dövlət aparatı həddən artıq şişirdilib. Bir-birini təkrarlayan qurumlar ləğv olunmalıdır. Bir çox nazirliklərin əməkdaşlarının böyük hissəsi vaxtlarını kompüter arxasında müxtəlif oyun oynamaqla keçirir. Çünki iş yükü xeyli azdır. Ona görə də bir neçə nazirlik birləşdirilə, nazirlik, dövlət komitələri, xidmətlərin sayı azaldıla bilər. Biz mütləq idarəetmə, dövlətin saxlanma xərclərini azaltmalıyıq, bunun başqa yolu yoxdur. Qarşıdakı bir neçə il ərzində islahatları başa çatdırmalıyıq ki, Neft Fondundakı vəsaitlər qurtaranda qeyri-neft sektoru, yeni iqtisadiyyat ölkənin büdcəsini təmin etsin".

❑ **E.PAŞASOY**

# Bələdiyyə üzvləri nəzarət altına alınır

**Azərbaycanda bələdiyyə qulluqçularının etik davranışları qanunla tənzimlənəcək. "Trend"in məlumatına görə, bu barədə Milli Məclisin Regional məsələlər komitəsində müzakirəyə çıxarılan "Bələdiyyə qulluqçularının etik davranışı qaydaları haqqında" qanun layihəsində qeyd olunur.**

Qanunda bildirilir ki, bələdiyyə qulluqçusunun xidməti davranışı bu qanunla müəyyən edilmiş etik davranış qaydalarına və prinsiplərinə əsaslanmalıdır.

Qanunun 5.2 bəndinə əsasən, bələdiyyə qulluqçusu bələdiyyə qulluğu ilə bağlı vəzifələrin icrasına uyğun olmayan və onun adına xələl gətirə biləcək, habelə yerli özünüidarə orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

Həmçinin bələdiyyə qulluqçusunun insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlar və hərəkətlər etməsi qanunla qadağan edilir.

Bundan başqa, sənəddə bildirilir ki, bələdiyyə qulluqçusuna seçkilər zamanı öz vəzifə mövqeyindən və ya səlahiyyətlərindən özünün və ya digər namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının xeyrinə istifadə etmək qadağan olunur. Bələdiyyə qulluqçusunun ictimai-siyasi fəaliyyəti, yaxud ictimai-siyasi birliyə mənsubiyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamalıdır.

Üç fəsil və 20 maddədən ibarət olan yeni qanunda bələdiyyə qulluqçularının xidməti davranış qaydaları, etik kodeksləri və intizam məsuliyyətləri göstərilib. Qanunda, həmçinin bələdiyyə qulluqçularının etik davranış qaydalarına nəzarət qaydaları da əks olunub. Sənəd özündə ehtiva edilənlərin pozulmasına görə məsuliyyəti də nəzərdə tutur.

Müzakirələrdən sonra qanun layihəsi plenar iclasa tövsiyə olunub.

YENİ MÜSAVAT
N 27 (6055) 6 fevral 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ermənistanda hakimiyyətdəki "Qarabağ klanı" ilə ("gəlmələr") yerli klan arasında hakimiyyət uğrunda rəqabət kəskinləşib. Bunu iki qruplaşma tərəfdarları arasında Azərbaycanın işğal altındakı Laçın rayonu ərazisində ötən həftə baş verən son qarşıdurma bir daha çılpaq şəkildə ortaya qoydu.**



# Qarabağa dair Qərbin cavab verə bilmədiyi əsas sual

## Beynəlxalq hüquq işğalçıları böyük-kiçiyə bölmür, Qərb niyə bölür? Ermənilər Azərbaycan torpaqlarını işğalda saxladıqlarını, Dağlıq Qarabağın Ermənistanın "bir vilayəti olduğunu" açıq etiraf edirlərsə, ikili standart siyasətinə necə yer qala bilər...




İrəvan rəsmiləri olayı lokal xarakterli insident kimi təqdim eləməyə cəhd göstərsələr də, fakt-faktlığında qalır ki, Ermənistan toplumunda 15 ildir siyasi-hərbi hakimiyyəti zorla ələ keçirmiş "Qarabağ klanı"na, onun hazırkı başçısı Serj Sərkisyana və mövcud korrupsioner rejimə qarşı narazılıq pik həddə çatıb. Baş verən hadisə də ən əvvəl bu narazılığın bariz təzahürü hesab edilməlidir.

Məhz belə bir atmosferin göstəricisidir ki, ən yaxın zamanlarda Ermənistanın müxtəlif vilayətlərində və paytaxt İrəvanda böyük etiraz mitinqlərinin keçiriləcəyi planlaşdırılır. APA-nın news.am-a istinadən verdiyi məlumata görə, bunu "Çiçəklənən Ermənistan" Partiyasının sədri Qagik Tsarukyan müxalif siyasi və ictimai təşkilatların iştirakı ilə keçirilən toplantıda bildirib.

**Onun sözlərinə görə, ölkədəki siyasi monopoliyanın kökü kəsilməlidir. Sitat:** "Ermənistana yeni keyfiyyətə malik hakimiyyət, yeni savadlı simalar lazımdır. Bununla bağlı mən yeni namizədlərə dəstək verməyə hazır olduğumu bəyan edirəm. Ermənistanda və ölkədən kənarda yaşayan erməniləri, yaxşı təhsil almış mütəxəssisləri hazırkı hakimiyyətə alternativ yaratmaq üçün birləşməyə dəvət edirəm. Top indi hakimiyyətdədir, amma bu, əbədi olmayacaq və hakimiyyət qərar verməlidir". Sözügedən toplantıda ana müxalifət sayılan Erməni Milli Konqresi, "İrs" Partiyası və digər müxalif siyasi qüvvələrin nümayəndələri də iştirak edib...

***

Laçındakı olayla bağlı ən sərt mövqe ortaya qoyanlar indi həm də Qarabağ münaqişəsinin gerçək mahiyyətini büruzə verməkdədirlər. Hadisəni birbaşa Xankəndi idarəçiliyi əleyhinə yönəldən siyasilər, ekspertlər də az deyil. Ermənistanın Kanadadakı keçmiş səfiri, "Modus vivendi" analitik mərkəzinin rəhbəri Ara Papyan kimi.

"Dağlıq Qarabağın güc orqanları tərəfindən müxalif "Təsis parlamenti" təşkilatının təşəbbüsü ilə avtoyürüş iştirakçılarının döyülməsi Qarabağ hökumətində belə bir əminliyin nəticəsidir ki, onlar guya müstəqil dövlətdirlər". Belə bir fikri o, erməni mətbuatına müsahibəsi zamanı söyləyib. Onun sözlərinə görə, Dağlıq Qarabağ de-fakto Ermənistanın bir vilayətidir: "Müvafiq şəkildə yerli hakimiyyət də vilayət rəhbərliyidir".

"Müstəqillik təkcə Azərbaycandan ayrılmaq demək deyil, bütün ölkələrdən, o cümlədən Ermənistandan müstəqil olmaq deməkdir. Ancaq Qarabağ necə müstəqil ola bilər ki, onun iqtisadiyyatı bütünlüklə Ermənistanın verdiyi *(ötən il o, 112 milyon dollar olub)* əvəzi ödənməyən kreditlərə əsaslanıb? Dağlıq Qarabağın hərbi təhlükəsizliyini də bütövlükdə Ermənistan təmin edir. Dünyada da Qarabağı Ermənistan təmsil edir. Qarabağ heç Minsk Qrupunda da yoxdur. Deməli, bizdən savayı heç kim Qarabağın müstəqilliyini tanımır", - deyə Papyan separatçı rejimə xitabən bildirib.

***

Əslində bu sözlər təkcə bir keçmiş erməni diplomatının, yaxud ekspertinin etirafı deyil. Eyni zamanda Ermənistan rəsmilərinin, bütövlükdə erməni toplumunun bildiyi, lakin açıq etiraf etmədiyi bəsit həqiqətdir. Dünya da, ATƏT-in Minsk Qrupunun əsas həmsədr dövlətləri - ABŞ, Rusiya və Fransa da də 25 ildir həmin reallığın fərqindədir. Əfsus ki, geosiyasi maraqlar üzündən bunu açıq dilə gətirə bilmirlər, hərgah, bəzi reallıqlarla barışmaq zorundadırlar.

Onlardan biri və birincisi odur ki, sülh danışıqlarında separatçı rejim təmsilçiləri həqiqətən də birbaşa iştirak etmirlər - onlar Dağlıq Qarabağın azərbaycanlı icması kimi yalnız maraqlı tərəfdirlər. Danışıqlar müstəsna olaraq Azərbaycan və Ermənistan arasında aparılır. Papyanın açıqlamasından da, Xankəndinin danışıqlarda tərəf olmaması gerçəyindən də o qənaət hasil olur ki, söhbət Ermənistanın Azərbaycana ərazi iddiasından doğan münaqişədən gedir və Ermənistan heç şübhəsiz ki, bütün parametrlərə görə işğalçı dövlətdir.

Yeri gəlmişkən, həm də belə bir qənaət hasil olur ki, ötən il noyabrın 8-də Azərbaycan tərəfdə vurulmuş erməni hərbi vertolyotu hansısa uydurma "DQR" ordusuna deyil, məhz işğalçı Ermənistan silahlı qüvvələrinə məxsusdur. Yəni ermənilərin daha bir yalanı üzə çıxmış olur bununla.

Belədirsə, gerçəyi erməni tərəfi də gizlətmirsə, o zaman məntiqli sual ortaya çıxır ki, nədən həmsədr dövlətlər işğalçı ilə işğalçı kimi davranmırlar? Nə üçün Rusiyanın Ukraynaya qarşı işğalçılıq hərəkətlərinə dözməyən, ona sanksiyalar tətbiq edən beynəlxalq birlik, ələlxüsus Qərb Ermənistana gələndə ikili mövqe sərgiləyir, Azərbaycanın ərazilərinin işğalını görməzlikdən gəlirlər? Beynəlxalq hüquq baxımından təcavüzkarın böyüyü-kiçiyi olur bəyəm?

Əlbəttə ki, yox. Hələ üstəlik, bəzən Dağlıq Qarabağı "mübahisəli ərazi", "neytral ərazi" kimi təqdim eləməyə çalışırlar. Yenə sual yaranır ki, cəmi 61 il öncə - 1953-cü ildə Ukraynaya verilmiş Krım yarımadası nə səbəbə "mübahisəli ərazi" sayılmır, heç vaxt Ermənistanın tərkibində olmamış Dağlıq Qarabağ isə sayılır?

Sıraladığımız sualların hamısının cavabını biz bilirik. Ədalətsizliyin arxasındakı xəfif "xristian təəssübkeşliyi"ni də çoxdan görürük. Amma istərdik ki, həmsədr dövlətlər, xüsusən də Rusiyaya qarşı sanksiyalar tətbiq edən ABŞ və Avropa da açıq şəkildə bunu bəyan eləsinlər ki, BMT, ATƏT, Avropa Şurasının tamhüquqlu üzvü olan Azərbaycanın ərazi bütövlüyü onlardan ötrü niyə formal xarakter daşıyır?

Qəribədir, ermənilər özləri açıq şəkildə Dağlıq Qarabağı "Ermənistanın vilayəti" saydıqları halda, - necə ki, Rusiya Krımı özünün əyaləti sayır, - aparıcı dövlətlər, Qərb təcavüzkarın gözünə belə üfürmür, əksinə, hətta işğalçı dövlətə, separatçı rejimə hər cür maliyyə-iqtisadi yardımlar edir, onu Avropa Birliyinə qoşmaq üçün dəridən-qabıqdan çıxır, sərhədləri açmaq üçün Türkiyəyə təzyiqlər göstərirlər! Görəsən, işğalçıya münasibətdə bu mislsiz lütfkarlığın arxasındakı səbəb, sevgi, rəğbət nəyə bağlıdır?

# Kəlbəcərli girovlarla bağlı separatçılardan sərsəm tələb

## "Girovlardan birini Ramil Səfərovla dəyişməyə razıyıq..."

**"Dağlıq Qarabağ "hakimiyyəti" kəlbəcərli girovlardan birini erməni zabiti Qurgen Markaryanı qətlə yetirən Ramil Səfərovla dəyişməyə razıdır". Modern.az saytı Ermənistan mətbuatına istinadən xəbər verir ki, bu sərsəm tələbi Dağlıq Qarabağdakı separatçı rejimin qondarma prezidentinin "mətbuat katibi" David Babayan səsləndirib.**



O əlavə edib ki, kəlbəcərli girovlarun birtərəfli qaydada qaytarılması mümkün deyil: "Girovların birtərəfli qaydada qaytarılması istisnadır. Fikirləşirəm ki, bu, demokratik prinsiplərin kobud şəkildə pozulması demək olardı".

Bundan öncə ATƏT-in amerikalı həmsədri Ceyms Uorlik kəlbəcərli girovların Azərbaycana qaytarılmasının tərəflər arasında gərginliyin azaldılmasına xidmət edə biləcəyini deyib. Girovlar - Dilqəm Əhmədov və Şahbaz Quliyevin məsələsi bu yaxınlarda Rusiya xarici işlər naziri Sergey Lavrovun dilindən də səslənib. Nazir məsələ ilə bağlı erməni tərəfi ilə danışıq aparılacağını söyləmişdi. Bundan bir qədər əvvəl isə o, Azərbaycan və Ermənistan arasında əldə edilmiş anlaşma əsasında girovların azad edilməsi və ya mübadilə yolu ilə qaytarılmasını məqbul saydığını bildirmişdi.

Xatırladaq ki, 2004-cü ilin yanvarında Macarıstanda erməni zabitinin ölümündə günahlandırılaraq barəsində ömürlük həbs qərarı çıxarılan Ramil Səfərov 8 il sonra - 2012-ci il avqustun 31-də Azərbaycan prezidentinin səyi ilə Budapeşt şəhərindəki həbsxanadan çıxarılaraq Bakıya gətirilib. Daha sonra prezident İlham Əliyevin sərəncamı ilə əfv olunub və o, Azərbaycan Silahlı Qüvvələrində xidmətə bərpa olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 27 (6055) 6 fevral 2015



# Lamiyəni buraxın

Aygün MURADXANLI

**Lamiyəni ilk və hələlik sonuncu dəfə 2013-cü ilin yayın lap cırhacır günlərində görmüşəm. İnsan haqları müdafiəçiliyi ilə jurnalistika arasında qalan, elə ümumiyyətlə arada qalan bir nəfəri 4-cü kolonun monitorinqində qəzetçi kimi müşayiət edirdim. Türmənin hər bölümündən keçəndə arxamızca bağlanan o ağır dəmir qapıların bədheybət şaqqıltısı mənə elə təsir eləmişdi, bir neçə dəfə yuxudan həmin səsə oyandığımı xatırlayıram. Çox əcaib səslərdir. Adama elə gəlir, donuq sifətli türmə nəzarətçilərinin əlindəki toplu açarlar adamın cismini yox, ruhunu da qəfəsə kilidləyir. Üşəndiricidir...**

Orda 3 qadınla ayrıca görüşdük. LİDO restoranının keçmiş aşpazı - qadın qızını döyən kürəkənini dəhrə ilə doğramışdı -, Hacı Məmmədovun Nailəsi, bir də Lamiyə Quliyeva ilə. Lamiyə heç kiriməd. Ağlaya-ağlaya deyirdi ki, Aslan Aslanov onu azadlığa çıxmağa qoymur, dəfələrlə ona xəbər göndərib ki, içəridən meyitin çıxacaq.

Qarşımızda yaraşıqlı, çox gənc, həyatını darmadağın etmiş bir qadın vardı. Axırda xahiş elədi ki, xalasına zəng eləyib görüşə gəlməsini istəyək. Deməsinə görə, Aslan Aslanovun göstərişi ilə ona telefondan istifadə haqqı verilmir, dustaqxanada belə onu dinc buraxmır, məhdud haqlarını tapdalayırlar. O zaman bunların hamısını yazdıq, xalasına da dediklərini çatdırdıq.

Lamiyə haqqında xəbərləri oxuyanda ağlıma ancaq bir şey gəlir - o, ana olmaq ideyasını azadlığa qovuşmağın tək yolu kimi görüb. Ancaq "Lamiyə ağlı" bunu düşünə bilməz. Görünür, kimsə ona başa salıb, inandırıb ki, rəis və müavinindən başqa bütün işçilərin qadın olduğu məhbəsdə hamilə olmaq ədliyyə sistemində elə bir fırtına qoparacaq, ölkə gündəmini elə məşğul edəcək ki, sonda onu azad etməyə məcbur olacaqlar. Sizcə, bu boyda həngaməni Lamiyənin bir müddət sonra "cəzasının 2/3-sini yatıb, himayəsində körpə var" gərəkçələri ilə azad edilməsi nisbətən səngitməzmi? Səngidər, məncə. Heç şübhəsiz, Lamiyəni azadlığa buraxmaq ədliyyə sistemi üzərindəki bu qara ləkəni yumayacaq Ancaq biz bilirik axı, bu ölkədə bir çox məsələlərə "adam yoxdusa, problem də yoxdur" açısından baxılır. Azərbaycanda rəsmilər, qurumlar haqqında dedi-qodular tez ört-basdır edilir. Biz malalayan, unudan toplumuq... Əgər yuxarıların bu biabırçılığa görə cavabdehlərdən heç kimi cəzalandırmamaq israrı varsa, bu variant keçərlidir.

Hələlik bu olay Penitensiar Xidmətin, bütün ədliyyənin boğazına ilişən balıq tıxı kimidir. Yediyini, öyüyüb qaytarmasa, rahatlaşması mümkün deyil.

Lamiyə naqis bir ailədə böyüyüb. Əslində heç böyüməyə vaxt da tapmayıb. Atası kriminal dünyanın adamıdı. Üstündə cinayətlər bir yana, nə qədər insanın ahı olub, Allah bilir. Beləsindən nə tərbiyə, nə örnək alınar ki? Hələ gen məsələsini demirəm. Belə mühitdə dünyaya gələn qızın 12 yaşından bu ortalıqlarda olması... bəlkə də gözlənilən sayıla bilər.

Bəs Aslan Aslanovun oğlu? "Lamiyə məsələsi"nin ən dəhşətli tərəfi budur. Onun Lamiyənin yanında nə işi vardı ki? Niyə Azərbaycanda məmur oğulları ancaq heyvərəlik, meşşanlıq, qudurğanlıqları ilə ad çıxarırlar, niyə əllərindən gələ bilən iş ancaq veyllənmək, gündəmə tərbiyə və mədəniyyətdən kənar hərəkətlərlə gəlməkdir? Nümunələrin nə sayı var, nə hesabı. Azərbaycan insanının düşüncəsində məmur oğlunun yaramaz obrazı elə daşlaşıb ki, valideynlərin gül balalarını təmizə çıxarmaq cəhdləri ancaq ikrah doğurur. Ataların dövriyyəyə buraxdığı "balam kitab yazıb alim olub, xeyriyyəçiliklər məşğuldur" xəbərlərinə inanan neçə hərif var bu ölkədə? Haram və özbaşınalığın əzizləndiyi, qanunu təpikləndiyi ölkədən başqa nə gözləyəsən?

Lamiyə olayının çox zaman təqdim edildiyi kimi 3 yox, 4 qurbanı var - öləndən, Lamiyədən, qadının ömrü bada gedən keçmiş nişanlısından başqa indi ortada bir də Sahib var - türmədə doğulan körpə. Bəlkə də anasını azad edəcək, amma Azərbaycanda yaşasa, onu yaşamağa qoysalar, ən ağır yükü o daşımalı olacaq.

Buraxın Lamiyəni. Hətta uzaqlara göndərin. Dərdini, Sahibini götürüb getsin buralardan. Bu ölkənin başından heç olmasa bir gələcək bəlanı açın.

# Qusar gömrüyü - işgəncə aparatı...

## Samur sərhəd-keçid məntəqəsində vətəndaşlara zülm olunur, saatlarla basabasda qalanlar soyulur; ölkəyə 10 kilodan artıq ərzaq keçirilməsi yasaqlanıb

**Samur sərhəd-keçid məntəqəsində vətəndaşlara zülm edilir. Bu məşəqqəti sözlə ifadə etmək belə çətindir. Yüzlərlə insan qışın sazağında, açıq havada, əlində ağır yüklər burada saxlanılır. Saatlarla çəkən növbədə yükü olmayanlar da eyni əzabı yaşamağa məhkum olunur...**

Bir neçə gün öncə Dərbənddən qayıdarkən Azərbaycan sərhədində üzləşdiyimiz bu dəhşətli mənzərənin açar cavabı var - rüşvət, monopoliya. Dərbənddən rus sərhədinə bir saatlıq yol gəlib, sərhədi təxminən 10-15 dəqiqəyə keçdik. Bu sevincimiz isə doğma yurdumuza ayaq basana qədər çəkdi. Çünki bizi SDK müsibəti gözləyirdi.

Əslində Azərbaycanın gömrük sistemindəki rüsvayçılıqlar, rəzil hallar haqda hər gün eşidirik. Ölkənin adını beynəlxalq təşkilatların əndrəbadi siyahılarına salan qurumlardan biri də məhz Dövlət Gömrük Komitəsidir.

Azərbaycanın sərhəd qapılarına ayaq basan əcnəbilər gömrükdəki qanunsuzluqlardan, rüşvətxorluqdan, gömrükçülərin kobud davranışlarından şikayətlənir. Xaricə üz tutan vətəndaşlarımız isə adətən Gürcüstanla müqayisə aparıb, Azərbaycan gömrüyündəki korrupsiya bataqlığından, bürokratik əngəllərdən, saatlarla növbələrdən, biabırçılıqdan danışırlar.

***

...Rusiyada rublun dəyərdən düşməsi ərzaq məhsullarını su qiymətinə endirib. İndi şimal bölgəsində yaşayan azərbaycanlılar evinə bazarlıq etmək üçün ən yaxın şəhər olan Dərbəndə gedir. Kimisi həftəlik, kimisi aylıq bazarlığını edib geri qayıdır.

Rus bazarlarında ət, yağ, qənd, kolbasa, pendir və digər gündəlik tələbat malları çox ucuzdur. Təqribən, Azərbaycanda bir həftəlik bazarlıq 40-50 manatdırsa, daha çox qida almaqla bu xərc 20-25 manata başa gələ bilər. Ona görə də azərbaycanlıların kütləvi şəkildə axını müşahidə olunur. Amma Azərbaycan tərəfi artıq məhdudiyyətlər qoymağa başlayıb.

Dünənə kimi 50 kiloqram yük keçirmək olurdusa, indi bu göstərici 10 kiloya endirilib. Vətəndaşlar bundan artıq məhsul daşıya bilməz. Gömrük inhisarçılara görə bu qaydanı tətbiq edib ki, kimsə satış məqsədi ilə ərzaq məhsulu keçirə bilməsin. Məntəqədə tərəzi qoyub bir-bir yükləri çəkirlər.

Əgər 10 kilodan artıqdırsa, rüsumun qiyməti kəllə-çarxa qalxır. Məsələn, bir neçə banka mürəbbəyə görə azərbaycanlılardan birinin yükünü 100 kilodan artıq yazıb, 120 manat rüşvət almışdılar. Bu pulu verməsəydi aldıqları ya gömrükçülərə qalacaqdı, ya da tullayacaqdı. Kolbasa keçirmək isə təxminən silah-sursat keçirmək kimi bir işdir.

Bir-iki kolbasa aparanlar məcbur olub, yolda onu doğrayıb sonra selofana qoyurlar. Gömrükdə 2 kq kolbasanın da satış məqsədi ilə aparıldığını iddia edirlər.

Amma Azərbaycandan Rusiya istiqamətinə ərzaq məhsulu aparanda qonşu ölkənin gömrüyü hər hansı problem yaratmır.

Bizim SDK-da isə yük maşınında meyvə aparan sürücülərin başına daha çox oyun açılır. Onların maşınları açılır, bir saatdan artıq mal açıq qalanda zay olur deyə, plomb vurmaq üçün rüşvət verilir. Sürücülər deyirlər ki, Rusiyaya meyvə-tərəvəz daşıyan ticarətçilər hər dəfə eyni əngəllərlə üzləşir. Sahibkarlara isə qan uddurulur. Tikinti materialları gətirən iş adamlarından fantastik məbləğdə qeyri-rəsmi rüsum alınır.

***

Məntəqədə ərzaq məhsulları keçirən vətəndaşlarla "katorqa"ya aparılan dustaqla olduğu kimi davranılır. Sanki gestapo rejimidir və sürgünə göndərilənlər bir yerə toplanıb. Saatlarla növbə, basabas, bir-birinin üstünə çıxan adamlar, hay-həşir, qışqırıq... Gömrükçülərin gözü qarşısında baş verən bu hadisələrə heç bir reaksiya verilmir.



Bizim yükümüz olmasa da, sərhədçi heç bir fərqi olmadığını deyərək piyadalar üçün nəzərdə tutulmuş yoldan buraxmadı. Həmin yolu bağlayıb, yüksüz sərnişinləri də alverçilərlə bir yerdə saxlayırlar. Təxminən 2 saatdan çox vaxt ərzində ayaqüstə dayanıb hissə-hissə vətəndaşların buraxılmasını gözləmişik. Yaşlı, xəstə, körpəsi olanları belə nəzərə almırlar.



Yalnız bir uşaqlı qadın uzun çağırışlardan, etirazlardan sonra yüksüz adamların keçməsi üçün nəzərdə tutulan xətdən buraxıldı. Vətəndaşlar yaranmış bu sıxlığa etiraz olaraq gömrükçüləri çağırdılar. Gömrük əməkdaşı isə kobud şəkildə "hamınız gözləyin" deyərək çıxıb getdi.

"Əşyalarımıza görə çox incidirlər. Qadınlarımız, uşaqlarımız oturub kafedə, gözləyirik. Bizimkilər çox incidir, ruslar da. Konfet-şokolad almışam. Öz vətənimdə bahadır, ala bilmirəm, gedib Rusiyadan alıb gətirmişəm. Qoymurlar. Deyirlər ki, çox aparma" - deyə, **Nazim Əzimov** bildirir.

**Onun sözlərinə görə, qəsdən belə sistem yaradılıb:** "Tərəzi qoyub çəkirlər ki, birdən alver məqsədilə apararam. Hamısı monopoliyaya görədir. Bunların əlindən heç nə keçirmək olmur. Ən yaxşısı Gömrük İttifaqına daxil olmaqdır. Bəlkə kəndçiyə, fermerə, yetim-yesirə bir az köməyi ola. Çünki rus əbədi qonşudur, bunlar da rüşvətxordur. Gərək pasportun içinə 100 rubl qoyub keçəsən, bizimkilər də yırtıcıdır. Rus heç olmasa az pul alır. Azərbaycan tərəfi həm boğaza yığır, həm səni saatlarla saxlayır, axırda da tərəziyə qoyub rüşvətini alır".

❑ **"Yeni Müsavat"ın Reportyor Qrupu**
**Samur sərhəd-keçid məntəqəsi**

# Ermənistanda sığınacaq almış azərbaycanlı ailə İrəvanı tərk edib

**Ermənistanda siyasi sığınacaq almış Azərbaycan vətəndaşı Cavid Orucovun ailəsi ötən ilin dekabr ayında ölkəni tərk edib. Bu haqda Ermənistan Miqrasiya Xidmətinin rəisi Qaqik Yeğanyan "News.am"a məlumat verib.**

Qaqik Yeğanyan Orucovların hara getdiyini açıqlamayıb.

Xatırladaq ki, 2014-cü ilin yanvar ayında arvadı və üç kiçik yaşlı uşağı ilə Azərbaycanı tərk edərək, Ermənistanda siyasi sığınacaq almış Cavid Orucov bir müddət əvvəl İrəvanda yaşayışın çətin olmağından şikayətlənirdi.



C.Orucov ailəsi ilə birgə İrəvandakı yataqxanaya sığınmışdı. Onlar BMT Qaçqınlar Komissarlığının başqa ölkəyə köçürülməsi haqqında qərarını gözləyirdilər.

**O, üçüncü ölkəyə getmək istəyini belə ifadə etmişdi:** "Mənim üçün fərqi yoxdur, hara olur-olsun, təhlükəsiz bir yer olsun".

1976-cı il təvəllüdlü Cavid Orucov bu addımını vətənində təqib olunması ilə izah edib. İddia edib ki, erməni əsilli Röya Mirzəyeva ilə ailə qurduğu üçün guya xüsusi xidmət orqanları ona təzyiq ediblər. Ancaq sonradan Orucovun anasının Azərbaycan KİV-lərinə müsahibələrindən məlum olub ki, oğlu heç də təzyiqlərə görə bu addımı atmayıb.



# Lamiyə Quliyeva 3500-4000 manata ana olub?

## Süni mayalanma barədə bilmədiyimiz ilginc gerçəklər

**Günün mövzusu heç şübhəsiz ki, məhbus Lamiyə Quliyevanın ana olması ilə bağlıdır. Sualların çox, cavabların isə bir-birindən fərqli, ziddiyyətli olduğu bir dönəmdə insanları daha çox maraqlandıran isə heç şübhəsiz ki, bu süni mayalanma söhbətidir. Fevralın 4-də ANS-in efirində mövzu ilə bağlı Ombudsman Aparatının açıqlaması bu cür yayılıb: “Ombudsman Aparatının əməkdaşları uşağın atası olduğu iddia edilən məhkumla da görüşüblər. Adının açıqlanmasını istəməyən məhkum Lamiyə ilə bir müddət eyni penitensiar müəssisədə saxlanıldığını, onunla qiyabi tanışlıq münasibətinin olduğunu, canlı təmasının olmadığını, uşağın atasının müəyyənləşdirilməsi ilə bağlı dəqiqləşdirilmə aparılması üçün DNT qan analizi verdiyini bildirib. O, izahatında onu da yazıb ki, Lamiyə onun spermasından istifadə edərək süni mayalanma edib”.**

Son illər Azərbaycanda sonsuzluq problemi yaşayan ailələrin az faizi süni mayalanma üsuluna müraciət edir. Çünki bu, heç də düşünüldüyü qədər məsrəfsiz prosedur deyil. Bu halda Pentensiar Xidmətdə saxlanılan bir məhbus xanımın da sözügedən üsulla ana olması ciddi məsələdir və özü ilə birgə çoxlu sayda suallar yaradır.

**Döllənmə laboratoriyada aparılır**

“Yeni Müsavat” mövzunun aktuallığını nəzərə alaraq, süni mayalanma ilə bağlı dosye hazırlayıb. Tibb saytlarına, rusdilli saytlara, eləcə də ekspert rəylərinə əsaslanan materialda bu prosedurun bütün detalları öz əksini tapır.

Öncə ondan başlayaq ki, süni mayalanma qadın və kişiyə aid reproduktiv hüceyrələrin bədəndən xaricdə döllənməsi deməkdir. Ana olmağa hazırlaşan qadınların yumurtalıqlarından alınan yumurta hüceyrələr ilə ata olmağa hazırlaşan kişilərin spermatazoidlərinin laboratoriyada (!-red.) birləşdirilərək döllənməsi və əldə edilən embrionların təkrar ana bətninə yerləşdirilməsi əməliyyatıdır. Müalicənin ilk mərhələsində yumurta hüceyrələr inkişaf etdirilir və uyğun zamanda alınır, daha sonra laboratoriyada spermatazoidlər birləşdirilərək inkişaf edən embrionlar ana bətninə yerləşdirilir.

Embrionlar bətn daxilinə uşaqlıq boynundan incə kateterlə yerləşdirilir. Bu əməliyyatların nəticəsində qadınların təxminən 50%-də hamiləlik olur. Lakin belə hamiləliklərin bir qismi düşmə ilə nəticələnir. Müalicə tətbiq edilən cütlüklərin 40%-i övlad sahibi ola bilirlər. Bu nisbət bir çox tətbiqlərdə 70-80%-ə qədər yüksələ bilir. Yerdə qalan 20-30%-lik qrup müasir tibbin bütün imkanlarına baxmayaraq övlad sahibi ola bilmir.

Amma proses başdan-ayağa həkim nəzarəti ilə həyata keçirilir. Yəni burda bir neçə mərhələ var ki, mütləq qaydada həkim, tibbi, dərman müdaxiləsi mütləqdir. Məsələn, süni mayalanmada müxtəlif dərmanlarla *(Gonal-F, Puregon, Menogon)* qadının yumurtalıqları oyadılır. Yumurtalıqların qıcıqlandırılmasının məqsədi çox sayda embrion əmələ gətirən yumurta hüceyrə əldə etməkdir. Çox sayda embrionun bətn daxilinə yerləşdirilməsinin *(embrion transferi)* hamilə qalmaq şansını artırdığı müşahidə edilir. *(Hamiləlik nisbətləri bir embrion yerləşdirildiyində təxminən 10%, üç embrion yerləşdirildiyində isə 40-50% ətrafındadır.)*

Süni mayalanma əvvəllər infeksiya və ya cərrahi əməliyyat nəticəsində uşaqlıq yollarında qalıcı qüsur əmələ gələn qadınlara tətbiq edilməyə başlanmış, qısa müddət sonra isə sonsuzluğa gətirib çıxaran səbəblərin müalicəsində də istifadə edilmişdir. Bu gün endometrioz, səbəbi izah olunmayan sonsuzluq faktları və kişi ilə əlaqəli sonsuzluqda süni mayalanma üsulları ilə müvəffəqiyyətli nəticələr əldə edilir.

**Qadına xüsusi dərmanlar yazılmalı, yumurtaları böyüdülməlidir...**

Özəl klinikalara müraciət edən sonsuz ailələr bir neçə mərhələni adlayır. İlk növbədə qadın və kişi müayinədən keçir. Müayinələrdən sonra xanım xəstəxanaya dəvət olunur, analiz götürülür və müalicə başlayır. Ciddi yumurta, ciddi boru problemi olarsa, yaxud kişi amilinin rolu varsa, süni mayalanmaya qərar verilir. Proses 2 həftə müddətində davam edir. Qadın aybaşının 2-ci, 3-cü günü klinikaya müraciət edir. Ona uyğun xüsusi dərmanlar yazılır, yumurtaları böyüdülür, iynə vasitəsilə qadının yumurtalıqlarından yumurta hüceyrələri toplanılır və embrioloji laboratoriyaya verilir. Eyni gündə onun həyat yoldaşından da hüceyrələr götürülür. Daha sonra qadın və kişinin hüceyrələri arasında sağlam və yaxşıları seçilir. Yumurtalar toplanılır və toplandıqdan sonra həyat yoldaşının hüceyrələri ilə birləşdirilib laboratoriyada xüsusi üsulla mayalandırılır. Üç-dörd gündən sonra ultrasəs cihazının nəzarəti ilə embrionlar qadının uşaqlığına yerləşdirilir. Buna tibbi dildə transfer deyilir. Süni mayalanmanın bir neçə üsulu var. Lakin ən müasir üsul bu cür tətbiq olunur.

**Dünyada ilk süni mayalanma əməliyyatı 1978-ci ildə, Azərbaycanda isə 2004-də aparılıb**

Tarixə müraciət edək. İlk uğurlu süni mayalanma Patrik Kristofer Steptou və Robert Edvards tərəfindən Böyük Britaniyada həyata keçirilib. Onların köməyi ilə 1978-ci il iyulun 25-də Luiz Coy Braun adlı qız dünyaya gəlib. Hazırda dünya miqyasında süni mayalanma ilə doğulan insanların sayının 1 milyondan çox olduğu bildirilir.

### Hər şey laboratoriyada həll olunur - türmənin laboratoriyası var?

Azərbaycanda isə süni mayalanma nəticəsində dünyaya gələn ilk körpənin 12 yaşı var. İlk dəfə türk mütəxəssisi Ersadık Turanın Azərbaycanda apardığı süni mayalanma hadisəsi 2004-cü ildə baş verib. Sonrakı illərdə Azərbaycanda həyata keçirilən süni mayalanma nəticəsində doğulan uşaqların sayı 3000-ə yaxındır.

**3500-4000 manatlıq valideynlik hüququ?**

Dünyada süni mayalanmanın alınma şansı 30-60 faiz arasında dəyişir. Burada yaş faktoru önəmlidir. Əgər qadın 30 yaşına qədərdirsə, onun alınma şansı 60-70 faiz, 30-35 yaş arasında 40-50, 35-40 yaşda 30-40, 40 yaşdan sonra isə 20-30 faiz olur. Yəni uşağı olmayan cütlüklər illərlə gözlədikdə zaman onların əleyhinə işləyir. Onların yaşı artdıqca süni mayalanma şansları aşağı düşür.

Azərbaycandakı özəl klinikalarda süni mayalanma qiymətləri aşağı-yuxarı eynidir. Dərmanı çıxmaqla süni mayalanma 2 min manata, dərmanla birlikdə 3500-4000 manata başa gəlir. Türkiyədə bəzi klinikalarda bu rəqəm 800-1000 manat arasında dəyişir, bəzilərində isə bu 4-5 min lirəyə, yəni təxminən 1500-2000 manata başa gəlir.

Dünyada qəbul olunmuş qaydaya əsasən 3 dəfə məsləhət görülür. Əgər qadının yumurtalıqları imkan verirsə, yumurtalıqların ehtiyatı yaxşıdırsa, sayın çox olması problem yaratmaz. 5-ci, hətta 6-cı dəfədə hamilə qalan xəstələr olur. Nəticə etibarı ilə bir qadının uşaqlığı, yumurtalıqları, kişidə isə sperma hüceyrələri varsa, bu üsulla hamiləlik şansı həmişə yüksəkdir.

“Yeni Müsavat” xatırladır ki, Milli Məclisin Sosial siyasət komitəsi sonsuzluq problemi ilə üzləşmiş şəxslərə dövlət hesabına süni mayalanma təklif ediləcəyi bəyanatını yayıb. Komitə sədri, millət vəkili Hadı Rəcəbli sonsuzluq müddəti kimi 10 il götürüləcəyini deyib. Millət vəkili qeyd edib ki, qanunda 10 ildən çox uşağı olmayan ailələrə dövlət hesabına süni mayalanma təklif ediləcək. Çünki bu, çox bahalı əməliyyatdır, kasıb ailələrin buna imkanı çatmır. Millət vəkili hesab edir ki, əgər hazırda nikaha daxil olanların 9-11 faizi sonsuzluq problemi ilə qarşılaşırsa, dövlət dəstəyi nəticəsində bu faiz xeyli aşağı salına bilər.

❑ **Sevinc TELMANQIZI**

# Baş həkimin döydüyü qadın danışdı: “Sifətimə sillə vurdu”

## Aygün Vəliyeva: “Adamın pulu olanda, oğlu böyük vəzifədə işləyəndə, insanlarla belə rəftar etməlidir?”



Pənah Əliyev

**“Yeni Müsavat”ın ötən sayında Nizami rayonu ərazisində yerləşən 26 saylı Şəhər Poliklinikasının baş həkimi Pənah Əliyevin xəstəxanaya gələn bir qadını döyməsi və bu hadisəyə görə işdən çıxarılması haqda yazı dərc etmişdik.**

Baş həkimin döydüyü qadın azinform.a danışıb. Naxçıvan Muxtar Respublikasında daimi qeydiyyatda olan, hazırda Bakı şəhərində yaşayan Aygün Vəliyeva açıqlamasında P.Əliyev tərəfindən döyüldüyünü təsdiqləyib: “Mən sadə bir insanam. Heç kimlə işimiz olmayan adamlarıq. Uşağım da, mən də, həmin poliklinikada "uçot"dayıq. Mənim qeydiyyatım Naxçıvana olsa da, uzun müddətdir ki, yaşadığım ərazi üzrə həmin poliklinikada qeydiyyatda dururam. Ora sənəd almaq üçün müraciət etmişdim. Sənədimi tapmadılar. Baş həkim kimi Pənah Əliyevə müraciət etdim. Həmin insan mənimlə çox kobud tonda danışdı və məni kabinetindən qovdu. Onun rəftarına etiraz etdim. Ayağa qalxaraq, məni zorla kabinetdən çıxarmağa cəhd etdi. Bu hərəkətinə müqavimət göstərəndə, sifətimdən sillə ilə vurdu. Mən 102-ni yığdım və gözlədim. Heç kim hadisə yerinə gəlmədi. Onun öz adamlarından mənə yaxınlaşdılar, sakitləşdirməyə çalışdılar. Mən başa düşmürəm, adamın pulu olanda, oğlu böyük vəzifədə işləyəndə insanlarla belə rəftar etməlidir? Allah özü onun bəlasını verəcək".

**A.Vəliyeva Pənah həkimə onun qohumları tərəfindən edilən təzyiqlə bağlı səslənən iddialara da aydınlıq gətirdi:** “Həmin hadisədən sonra ərazi üzrə polis bölməsinə müraciət etdim. Az qaldılar məni özümü tutub içəri bassınlar. O qədər yersiz suallar verdilər ki, bezdim. Ekspert rəyi almaq üçün "Su Tikinti" Xəstəxanasına müraciət etdim. Maraqlıdır, yolda bir adama sillə vuranı tutub içəri soxurlar, ancaq mənim şikayətimə baxan olmadı. Ekspertiza mənə doyülməyimlə bağlı rəy verməkdən imtina etdi. Hadisə baş verən zaman Pənah mənim telefonumu da əlimdən zorla almışdı ki, heç yerə zəng vurmayım. Dəhlizə çıxıb, çantamda olan başqa telefonla zəng vurdum. Bütün kameralar həmin hadisəni qeydə alıb. Yəqin ki, artıq sildirib. Maraqlı burasıdır ki, həmin hadisəyə görə Pənahın yox, bizim ailənin başı ağrıdı. Nizami rayon polisi bizi incitməyə başladı. Mən etiraf edirəm, qardaşım və həyat yoldaşım girib ona kabinetində bir sillə vurublar. Bunu açıq ediblər ki, cəzası nədir çəkməyə hazırıq. Biz cəzasını çəkdik, bəs Pənaha niyə heç nə edilmir?"

Məlumatı verən mənbə müsavat.com-a sonra bildirmişdi ki, bu xəbər Səhiyyə Nazirliyinə çatan kimi baş həkimlə bağlı sərt tədbir görülüb. Səhiyyə naziri Oqtay Şirəliyev vətəndaşla, xüsusilə də qadın xəstə ilə bu cür davranan baş həkimi dərhal işdən qovub. Hazırda P.Əliyev işsizdir.

“Hadisə iki il əvvəl baş verib. Doğrudan da keçmiş baş həkim Pənah Əliyevin pasientlə mübahisəsi düşüb. Bu hadisədən sonra da nazir Oqtay Şirəliyev onu tutduğu vəzifədən azad edib”.

Bunu nodern.az-a Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli deyib. Onun fikrincə, indiki baş həkim savadlı, həm də çox sakit təbiətli bir insandır.

Xatırladaq ki, P.Əliyev Qərbi Azərbaycandandır. Deyilənə görə, o, sabiq səhiyyə naziri Əli İnsanovun yaxın adamlarından olub. Əvvəllər Travmatologiya İnstitutunun direktoru vəzifəsində çalışıb. Ə.İnsanov onu 1 saylı Şəhər Kliniki Xəstəxanasına (“Semaşko”) baş həkim təyin edib. İnsanov vəzifədən çıxarıldıqdan sonra onu 26 saylı poliklinikaya baş həkim göndəriblər. Onu da xatırladaq ki, P.Əliyev məhkəmədə Ə.İnsanovun üzünə dayanıb. Pənah Əliyevin də mövqeyini dərc etməyə hazırıq.

❑ **T.ƏHMƏDLİ**

YENİ MÜSAVAT
N 27 (6055) 6 fevral 2015




**Cümə söhbətləri**

# Təqvadan kənar həyat - illüziyadır

**Bismilləhir-Rahmənir-Rahim! Allaha həmd olsun ki, bizlərə İslamın mahiyyəti, mövzuları ilə bağlı məsələlərə diqqət ayırmağı, mübarək İslam maarifində olan tövsiyələrdən bəhrə götürməyi nəsib edib. Bugünkü bəhsimizdə mübarək Qurani Kərimin “Hədid” surəsinin 20-ci ayəsində olan mühüm, incə çalarlara toxunacağıq. Rəbbimiz bizləri məlumatlandırır və bilgiləndirir: “Bilin ki, bu dünya həyatı yalnız oyun, əyləncə, bəzənmək, bir-birinizə öyünmək və mal-dövlət və övladda bir-birinizi üstələmək(dən ibarət)dir...”**

**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**



## Qurani Kərim dünyanın deyil, dünya həyatının mənfi olduğunu çatdırır

Nurani ayədə diqqət olunmalı xüsusi çalarlardan biri budur ki, ayədə söhbət dünyanın özündən deyil, dünya həyatından, dünyapərəst həyatdan, həyatın təqva və imandan kənar bir formasından gedir. Daha dəqiq desək, ayədə insanın dünyada hədər yaşayışı, iman və təqva mövcud olmayan durumu, iman və təqva üzərində qurulmayan həyatı nəzərdə tutulur. Əgər insanın həyatı əql, seçim, iradə, İlahi vəhyə söykənmə əsasında baş vermirsə, belə həyat dünya həyatı adlanır. Məhz bu dünya həyatı Qurani-Kərimin məntiqi ilə aşağıdakılardan ibarət olar: oyun-oyuncaq, əyləncə, insanın vaxtını səmərəsiz işlərə xərcləməsi, bəzənib-düzənmək, bir-birinə öyünmək, mal-dövlətdə və övladda üstünlüyə can atmaq.

Rəbbimiz, “bilin ki” ibarəsi ilə sanki bizim bu məsələdə qəflətdə olmağımıza işarə edir. Sanki unutmuşuq, fərqində deyilik, düşünmürük ki, dünya həyatı bunlardan kənar deyil. Mühüm bir şeyi Rəbbimiz bizlərə öyrədir. İman və təqva olmadan içərisində olduğumuz dünya həyatının tam mahiyyətini Rəbbimiz açıb, bizlərə göstərir. Dünya həyatı sadalananlardan kənar olmayacaq.

Bir mühüm təfsiri çaları xatırlatmaq da yerinə düşər. Qeyd etdik ki, bu ayə insan həyatının inkişaf mərhələlərinə də işarə edir. Ayədə buna işarə olunub ki, bizlər uşaq idik, sonra yeniyetmə, sonra cavan, sonra yaşlı olduq və sonra ahıl yaşına çatdıq. Oyun-oyuncaq uşağın xarakterik xüsusiyyətidir, uşaq ona meyllidir. Əyləncəyə, boş, mənasız işlərə meyllənmə yeniyetməyə xas olan xüsusiyyətdir. Fiziki anlamda müxtəlif müstəvilərdə bəzənib-düzənməyə can atmaq - cavanlığın xüsusiyyətidir. Əgər həyat iman və təqva ilə yoğrulmasa, insanın cavanlığı elə bununla keçər. Nailiyyətlərlə öyünmək - daha çox orta yaşın, övladda və malda üstünlüyə can atmaq isə yaşlılığın əlamətidir. Uşaqda aparıcı qüvvə oynamaq olar. Uşaq istəyər ki, bütün günü onunla oynasınlar. Yeniyetmə xüsusi hədəfi olmayan məşğuliyyətlərə meyllidir. Cavanlıqda - əyləncə, orta yaşda - öyünmə, yaşlılıqda isə üstələməyə can atmaq hərəkətverici qüvvəyə çevrilər.

## Dünya həyatı gerçək təkamül üçün maneəyə çevrilər

Ciddi təfsiri çalarlardan biri budur ki, dünya həyatı əgər iman və təqvadan kənar olarsa, oyun, bəzənib-düzənmək, əyləncə, öyünmə, üstünlüyə can atmaq olduqda, insanın gerçək təkamülü üçün maneəyə çevriləcək. İnsan təkamülə çatmaq, Allah bəndəsi olmaq, öz kamalına çatmaq, istedadları büruzə verdirmək üçün yaradılıb. İnsanın bir yaradılış olaraq istedadları yalnız fiziki, maddi məsələlərlə məhdudlaşmır. Əgər insanda iman və təqva olmasa, onun mövcudiyyətinin inkişafı, dinamikası ancaq maddi və bu dünya ilə məhdudlaşan həddə olacaq. Həqiqi inkişafdan söhbət getməyəcək. İnsanın yaranması və təkamül keçməsi həqiqi hədəf üçün olmayacaq. İnsan yaşayacaq və həyatının bir təzahürü - oyun-oyuncaq, bir təzahürü - əyləncə və vaxt keçirtmək, bir təzahürü - bəzənib-düzənmək, bir təzahürü - öyünmək, bir təzahürü - üstələməyə can atmaq olacaq. Bunların hamısı insanın həqiqi təkamülü üçün maneəyə çevriləcək. Bu mənada əslində Qurani-Kərim ayəsi bizlərə həqiqi inkişafdan, həqiqi mövcudiyyətimizdən qaldığımızı bildirir. Əgər belə yaşasaq, bizlər həqiqi yaradılış fəlsəfəmizdən kənar qalarıq.

Bütün dünyəvi təzahürlərin verdikləri - qətiyyən həqiqi nəticələr deyil. Bunların hamısının nəticəsi - xəyalidir. Bütün bu nəticələrin hamısı bu dünya ilə bağlıdır. Bu dünyada olan ləzzətlərin hamısı bura ilə bağlıdır. Bunlar həqiqi ləzzətlər deyil. Oyunun da, əyləncənin də, bəzən-düzəyin də, öyünmənin də, üstələməyin də verdiyi ləzzətlər - keçici ləzzətlərdir. Bu ləzzətlər bu dünya ilə bitir. Hətta buranın özündə belə çox keçici və ötəridirlər.

## Təqvadan kənar həyat - xəyali həyatdır

Allah Təala bizlərə xəbərdarlıq edir ki, əgər həqiqi həyatı yaşamasaq, həyatımız bu dünya ilə məhdudlaşsa, dünyanın vermək istədedları bu göstərilənlərdən kənar deyil. Bizlər məcazi, xəyali, virtual çərçivələrdə mövcud olacağıq. Həqiqi və real həyatdan məhrum olacağıq.

İnsanlar var ki, bütün günü virtual oyunlar oynayırlar. Diqqət etsək, bu texnolojilər, müasir avadanlıqlarda olan bu oyunlar bu həyatı daha da virtuallaşdırırlar. Adları da elə bu cürdür. Bunlara xəyali, məcazi, virtual həyat deyirlər. Adları üzərlərindədir. Bu oyunlarda olan əyləncələr, oradakı öyünmələr, üstələməyə can atmalar çox kömək edir ki, bura ilə də axirəti müqayisə edə bilək. Dünya axirətə bağlanmasa, bura da elə məcazi, xəyali, virtualdır. Oyun bitdi, hər şey orada qalır. Qurani-Kərim bizlərə başımızı bu oyuna qatmamağı, daha ciddi işlərlə məşğul olmağı öyrədir. Rəbbimiz bizə daha qlobal ayıltma verir. Dünyanın əgər gerçək dəyərlərə, iman və təqvaya bağlantısı olmasa, məcazi və həqiqi olmayan yaşama olar.

## Dünya həyatının bütün təzahürləri oyun və əyləncədir

Oyunun özünün bir neçə xüsusiyyəti var. Oyun vaxtı səs-küy çox olar, uşaqlar böyük bir enerji sərf edərlər, dalaşarlar, barışarlar. İnsanlar da dünyanı iman və təqvadan kənar yaşayarkən, bu dünyadakı məşğuliyyətləri də elə oyun-oyuncaq olar. Məktəb bir oyuncaq, universitet bir oyuncaq, iş-güc bir oyuncaq, ailə bir oyuncaq, mal-mülk bir oyuncaq, insanların bir-biriləri ilə dalaşması, didişməsi, yarışması, müharibə etməsi və s. oyuncaq olar belə insan üçün.

Hər nə ki, insanı mühüm işlərdən ayırır - əyləncə sayılır. Pul dalınca getmək əgər insanı Allahı xatırlamaqdan uzaqlaşdırsa, əyləncə olar. Pul qazanmaq o zaman ruzi ardınca getmək olacaq ki, o işin dalınca gedəndə insan Allaha bəndəliyi unutmayacaq. Əgər pul qazanmaq dalınca getmək insanı Allahı xatırlamaqdan çəkindirirsə, qəflətə aparırsa, bu, Qurani-Kərimdə sadalanan dünya həyatının bir təzahürü olur. Buna artıq ruzi deyilmir. Əgər ailə həyatı insanı mənəvi təkamülə aparmırsa, əgər ailə həyatı insanı Allaha bəndəliyə gətirib çıxarmırsa, Allahdan qəflətə aparırsa, dünya həyatının təzahürlərindən birinə çevrilir. Bunu hər bir şeyə aid etmək olar. Hətta əgər biri gəlib İslamı Allaha bəndəlik üçün deyil, şüar olaraq seçərsə, bu da dünya həyatının təzahürlərindən birinə çevrilər. Təəssüf ki, bizlər bu gün bunun geniş nümunələrini görürük.

Belə ümumiləşdirə bilərik ki, insanın mənəvi durumuna, Allaha bəndəliyinə, Allahın razılığını qazanmağa aparan təkamülünə mane olan hər bir şey - oyun-oyuncaq və əyləncədir. Ona görə də, dünya həyatı ilə nisbətdə oyun və əyləncə ibarəsinə geniş rast gəlinir. Oyunda heç olmasa xəyali, əqli hədəf var. Əyləncədə heç bu hədəf də yoxdur. Ğina - haram musiqi, insanı haldan çıxaran musiqi - buna ən bariz nümunə ola bilər. İnsanlar nəyə görə ğinaya meyllidir? Düşünürlər ki, ğinaya qulaq asanda hər şeyi unudurlar. İnsan belə olan halda bütün məsuliyyətlərdən, bütün qayğılardan kənarda qalır. Ğina - insanı real təkamüldən ayıran ən ciddi məsələlərdəndir. Allahdan qəflətə aparan hər bir şey bu cürdür. Necə ki, oyunun müddəti az olar, eləcə də dünyanın müddəti az olar. Necə ki, oyunda sevinmə və yorulma var, insanın da dünyanın sevinməsi və yorulması olur.

## Nə edək ki, bu dünyanın qatlarında itməyək?

Rəbbimiz bu dünya həyatının içərisində insanın itib-batmaması, həyatı imanlı və təqvalı yaşamaq üçün çoxsaylı amillər qərar verib. Bütün mübarək günlər, əyyamlar, bütün buyurulan əməllər, dualar, zikrlər, münacatlar insanın Allahla daim rabitədə olması üçündür. Əgər insanın rabitəsi yoxdursa - bunu qurmaq, əgər varsa, bunu gücləndirmək lazımdır. Başqa cür desək, bütün bunların hədəfi insanı qəflət halından çıxarmaqdır. Ümumiyyətlə, dinin əsas qayəsi budur ki, insan qəflət halından çıxsın, Allahı xatırlasın, Allaha bəndə olsun və daxilində Allaha bəndə olmaq halı, ruhiyyəsi üstünlük təşkil etsin. Bu zaman insan düzgün seçimlər edəcək və düzgün qərarlar verəcəkdir.

Allahla rabitəni daim saxlamaq üçün ən gözəl vasitə - insanın vacibatlarına, namazlarına diqqət etməsidir. Ariflər buyururlar ki, əgər namaz vaxtı insan nə etdiyini bilsə, əgər nə etdiyinin fərqində olsa, namazdan sonrakı halı ilə namazdan öncəki halı arasında fərq olacaq. Bircə namaz onun təkamülünü həyata keçirdə bilər. Əgər namaz vaxtı insan Kiminlə danışdığının fərqində olsa, namazdan öncəki vəziyyəti ilə namazdan sonrakı vəziyyəti çox fərqli olar. Əgər Həccə gedən bir zəvvar hara getdiyinin fərqində olsa, həcdən əvvəlki vəziyyəti ilə sonrakı vəziyyəti xeyli fərqlənər. Ona görə də, insan hər mənəvi işi görəndə gərək nə etdiyinin, necə etdiyinin fərqində olsun.

## Allahdan əfv diləmə Onunla rabitəmizi bərpa edər

Eyni zamanda insan öz büdrəmələrinə, günahlarına, çatışmazlıqlarına görə Allahdan üzr istəməli, əfv diləməlidir. Biz hər vəziyyətimizdə, hər durumumuzda ki, bacardıqlarımızdan aşağı davranırıq, əslində büdrəmiş oluruq. Bəzən bunlar haram şəklində, bəzən məkruh şəklində olur. Bəzən günah sayılmır, amma yanlışlıqdır, insanı irəliyə aparmır. Hər vaxt ki, biz öz imkanlarımızdan daha aşağı davranırıq, o vaxt biz Allahın dərgahında bəndəlik baxımından büdrəmiş oluruq. İnsan daim Allahla ünsiyyətində bu məsələyə diqqət etməlidir, əfv diləməli, istiğfar etməlidir.

İmam Sadiq (ə) buyurur: **“Bəndə günah iş gördükdə, səhər tezdən gecəyə qədər ona möhlət veririk. Əgər günahlarının bağışlanmasını diləsə, o günah yazılmır”.** Arxayın olunası məsələ deyil. Əgər insan qəflətdə olsa, nəinki həmin günün axşamı, hətta bir həftə, bir ay, bir il, bir ömür keçsə belə, ona görə bağışlanma diləməz. Bu hədis sadəcə insanın məyus deyil, ümidli olması üçündür. İnsan buna riayət etmək üçün Allahla ünsiyyətdə, rabitədə olmalıdır. İnsan büdrəyəndə də gərək özünü toparlamağı bacarsın.

## Günahların pis qoxusu

Həzrət Əli (ə) buyurur: **“Günahlarının bağışlanmasını diləməklə özünüzü ətirləndirin ki, günahlarınızın iyi sizi rüsvay etməsin”.** Belə başa düşülür ki, günahların özünün yaratdığı mənfi, eybəcər bir ab-hava var. Bizlər günahların bağışlanmasını istəməklə əslində özümüzü ətirləndiririk. Biz hər büdrəyəndə, hər günah edəndə varlıq aləmində bir eybəcərliyin yaradılmasında iştirak edirik. Bunun həlli - Allahdan bağışlanma diləməkdir.

Allahın Rəsulu (s) buyurur: **“Hər kim əfv çox diləyərsə, Allah onun hər qəmi üçün bir fərəc, çətinliyi üçün bir çıxış yolu meydana çıxarar”.** Biz istiğfarı daha çox etdikcə, Allah Təala hər qəmimiz üçün bir fərəc, hər çətinliyimiz üçün bir çıxış yolu nəsib edər. Bizim bəzən çətinliklərimizin, müşküllərimizin həlli - elə Allahla səmimi ünsiyyətdə, bağışlanma diləməkdə olur. Allah nəsib etsə, bu yolla qəmlərimiz, çətinliklərimiz aradan gedər.

Dinimiz - ümid dinidir. Həzrət Əmirəlmöminin (ə) buyurur: **“Günahlarının bağışlanmasını istəyən və bununla belə naümid olana heyrət edirəm”.** Ümidli olmaq çox mühümdür. Amma günahların bağışlanmasını diləmək sadə olduğu qədər, həm də Allahın tofiqatına bağlı olan bir məsələdir. İslamın məsələləri çox aydın və sadədir. Amma ayıqlıq, qəflətdə olmamaq istəyir.

**Allahım, bizlərə gerçək təkamül, gerçək həyat yaşamağı nəsib et!**

**Allahım, bizlərə daim Səninlə rabitədə olmağı nəsib et!**

**Allahım, bizlərə bütün günahlardan, bütün mənfiliklərdən nicat ver! Amin!**

# Narazı dəmiryolçular 5 tələblə etiraz aksiyasına hazırlaşırlar

## Qurum rəsmisi: "Onların iddiaları əsassızdır..."

**Narazı dəmiryolçular etiraz aksiyasına hazırlaşırlar. Bununla bağlı onlar artıq Bakı Şəhər İcra Hakimiyyətinə müraciət də ünvanlayıblar. Şikayətçilər martın 2-də 3 saatlıq aksiya keçirmək niyyətindədirlər.**



38 ildir ki, dəmir yolunda işləyən keçmiş bələdçi **Adil Vəlixanov** aksiyada 5 tələblə çıxış edəcəklərini deyir: "Artıq 3 gündür Hacıbala Abutalıbova aksiya keçirmək barədə icazə məktubu göndərmişik. Biz iyul ayında haqlarımızı tələb etmək üçün aclıq aksiyası keçirmişdik. O zaman Hacıbala müəllim bizə aksiya keçirmək əvəzinə problemlərimizin həll edilməsi üçün yenidən Azərbaycan Dəmiryolları QSC-yə müraciət etməyi məsləhət gördü. Müraciətimizə baxılması üçün onun özü şəxsən QSC sədri Arif Əsgərova məktub göndərdi ki, bizim işimizə baxıb cavab verilsin. Lakin üstündən 5 ay keçməsinə baxmayaraq heç bir cavab verilməyib. Ona görə biz ikinci ərizəni verməyə məcbur olduq. Biz dövlətin demək olar ki, bütün qurumlarına müraciət etmişik. Müraciətlərimizi göndərirlər Dəmiryol QSC-nin üstünə. Bunlar da yuxarı qurumlara cavab verirlər ki, guya haqsızıq və bizim bütün tələblərimiz təmin edilib. Halbuki onlar bizim heç bir tələbimizi təmin etməyiblər. Artıq 1 ilə yaxındır ki, məhkəməmiz gedir. Nəsimi məhkəməsi sənədləri düzgün verməməyimizi bəhanə gətirərək işimizdən imtina etdi. Biz də apelyasiyaya müraciət etdik. Hakim Maarif Cəfərov iddiamızı təmin etdi və işə baxılması üçün qərar çıxartdı. Hazırda işimiz Ali Məhkəmədədir. Fevralın 16-da Ali Məhkəmədə işin mahiyyəti üzrə məhkəmə prosesidir".

**Haqlarını sonadək tələb edəcəklərini deyən keçmiş dəmiryolçu irəli sürdükləri 5 tələb yerinə yetirilməyincə geri çəkilməyəcəklərini bildirdi:** "Əgər səhv ediriksə, bizi kollektiv şəkildə, ya da ayrı-ayrılıqda məhkəməyə verib cəzalandırsınlar. Bizim aşağıda sadaladığımız tələblər yerinə yetirilməyincə bu işdən əl çəkən deyilik. **1-ci tələbimiz** odur ki, bu işlərin başında duran Arif Əsgərov, Əlirza Süleymanov, Sərnişindaşıma şöbəsinin rəisi Əliyar Muradov, Sərnişindaşıma Deposunun rəisi Rəhman Əbişov istefa versin. Onlar haqda cinayət işi açılsın. **2-ci tələb** - Nazirlər Kabinetinin qərarı var. Onlar həmin qərarda göstərilən qaydanı pozaraq bizə aid olan pulu ələ keçiriblər. O pullar düzgün hesablanıb bizə ödənilsin. **3-cü tələb** - qanunsuz şəkildə işdən çıxarılanlar, ixtisara salınanlar və ərizə yazmağa məcbur edilənlər işə qaytarılsın. **4-cü tələb** - 2007-ci ildən bu günə kimi ayrı-seçkilik edib yeni götürdükləri işçilərə 450-500 manat maaş ödədikləri halda köhnə işçilərə 120-150 manat maaş verirlər. Köhnə işçilərin də maaşı eyni qaydada olsun. **5-ci tələb** - işimiz iş normativinə uyğun hesablanmalıdır. Yəni eyni saat, eyni qatarlar, eyni vaqonlar verilsin. Təzə gələn işçilərə yeni vaqonlar, köhnə işçilərə isə köhnə vaqonlar verilir. Biz aksiya zamanı bu tələbləri səsləndirəcəyik".

**"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədov isə narazı dəmiryolçuların iddialarının əsassız olduğunu bildirdi:** "Çünki nə tələb ediblərsə, həyata keçirilib. Bu şəxslər onlara təzə vaqonların verilməsini istəyirlər. Astara istiqamətinə təzə qatarın birini veriblər. Bilirsiniz ki, bizdə vaqon çatışmazlığı var. Vaqonlarımız Rusiyada, Ukraynada təmirdədir. Onlar gəldikcə verəcəyik. Daha sonra saatlardan şikayət edirlər. Elə olur ki, onların maaşları bir ay çox, bir ay az olur. Dəmiryol rəhbərliyi həmkarlarla birlikdə bu məsləyə baxıb müzakirə edib. Bir ay çox, bir ay az olsa da kvartalın axırında cəmləşəndə bu saatlar tamamlanır. Onların qaldırdıqları iki məsələnin ikisi də həll olunub. İndi onlar nə istəyirlər, bilmirəm. Adətən belə olur ki, iddiaçı tərəf qarşı tərəfi ittiham etmək üçün müxtəlif misallar gətirir. Müstəqil ölkədir. Hər kəsin ixtiyarı var ki, öz sözünü desin. Onların qaldırdıqları məsələlərə baxılıb və özləri ilə birlikdə müzakirə edilib. Əgər razı deyildilərsə, otaqdan çıxmayıb iddialarını qaldırardılar ki, yox, biz razı deyilik".

❑ **Günel MANAFLI**

# Anasını öldürüb qaçan sərhəddə tutuldu



**Bakıda daha bir qətl hadisəsi törədilib. Bakı Şəhər Baş Polis İdarəsindən lent.az-a verilən məlumata görə, Nərimanov RPİ 18-ci PB və Qusar RPŞ əməkdaşlarının birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində fevralın 3-də axşam saatlarında Ə.Vahid küçəsində yerləşən modalar evində dərzi işləyən anası, 1967-ci il təvəllüdlü Sevinc Əliyevanı qısqanclıq zəminində bıçaqla qətlə yetirməkdə şübhəli bilinən Bakı şəhər sakini, borclu kimi axtarışda olan, 1992-ci il təvəllüdlü Elnur Əliyev Qusar Sərhəd Keçid Məntəqəsində müəyyən olunaraq tutulub.**

# 75 yaşlı kişi özünü asdı



**Lənkəranda intihar hadisəsi baş verib. Səhiyyə Nazirliyi Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Lənkəran rayon şöbəsindən APA-nın cənub bürosuna verilən məlumata görə, rayonun Ləj kənd sakini, 1940-cı il təvəllüdlü Balaxan İsa oğlu Əlirzayev yaşadığı evdə özünü asıb. İntiharın başvermə səbəbləri hələlik məlum deyil.**

Faktla bağlı Lənkəran Rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.

# Balakəndə məhkəmə zalındakı qətlin təfərrüatları



**Balakəndə iki ay əvvəl həmkəndlisini bıçaqlamaqda təqsirləndirilən şəxs məhkəmə zalında qətlə yetirilib. Balakən Rayon Mərkəzi Xəstəxanasından APA-ya verilən məlumata görə, Balakən RMX-nin Təcilli Yardım Stansiyasına fevral ayının 4-ü axşam saat 17: 45 radələrində Balakən Rayon Məhkəməsinin binasında bir nəfərin bıçaqlanması barədə çağırış daxil olub.**

Hadisə yerinə gedən həkim briqadası tərəfindən aparılan müayinə və araşdırma zamanı məlum olub ki, məhkəmə prosesində təqsirləndirilən, rayonun Qullar kənd sakini, 1993-cü il təvəllüdlü Məhəmməd İlham oğlu Xanpəriyev ağır bıçaq xəsarətləri alıb və o, aldığı bıçaq xəsarətlərindən hadisə yerində ölüb.

Qeyd edək ki, qətlə yetirilən Məhəmməd Xanpəriyevlə hadisəni törədən Elşən Xipiyev arasında olan münaqişə ötən ilin dekabr ayının əvvəllərindən başlayıb. Belə ki, ötən ilin dekabr ayının 9-u məhkəmə prosesində qətlə yetirilən Məhəmməd Xanpəriyevlə həmkəndliləri 1991-ci il təvəllüdlü İlham İsak oğlu Xipiyev və İlham Xipiyevin qardaşı oğlu, Elşən Xipiyev arasında (məhkəmə prosesində hadisəni törədən) şəxsi münasibətlər zəminində münaqişə baş vermişdi. Münaqişə zamanı Məhəmməd Xanpəriyev üzərində gəzdirdiyi bıçaqla İlham Xipiyevi və onun qardaşı oğlu Elşən Xipiyevi vuraraq onlara müxtəlif dərəcəli bədən xəsarətləri yetirmişdi. Dekabr ayında bu hadisəni törədən Məhəmməd Xanpəriyev barəsində Balakən Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan qərarı çıxarılmışdı.


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

*Əyləncəli, sürətli, asan!*

Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

* ✓ *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
* ✓ *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
* ✓ *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
* ✓ *Əla tələffüz və güvənlə danışmaq*
* ✓ *Real ingiliscə söhbətlər*

BONUS english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

*N 27 (6055) 6 fevral 2015*

## Qoroskop

(6 fevral)



Səbuhi Rəhimli

QOÇ - Şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin. Nahardan sonra ağır fiziki işlərdən, nabələd adamlarla danışıqdan yayının.

BUĞA - Havaların şıltaqlığını nəzərə alıb istirahətə daha çox üstünlük verin. Əgər qonaqlığa dəvət alsanız, məmnuniyyətlə qəbul edin. Ümumi zəifliyinizə görə, qidanıza da yaxşıca fikir verməlisiniz.

ƏKİZLƏR - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqdan sevindirici xəbər alasınız. Hər halda, ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə maksimum ehtiyatlı olmalısınız.

XƏRÇƏNG - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Qlobal məsələlərin həllində təşəbbüskarlığı da əldən verməyin.

ŞİR - Bu gün ümumi əhvalınızda xoş məqamlar çox olacaq. Ələlxüsus da saat 15-dən sonra bütün cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı isə ailə-sevgi münasibətlərinə həsr edin.

QIZ - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Vaxt tapıb yaxın dostlarınıza baş çəkin.

TƏRƏZİ - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, həmçinin daxili orqanlarınıza ciddi fikir verməlisiniz.

ƏQRƏB - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Uzaq yola çıxmayın.

OXATAN - İntiqam hissi, əsəbi situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Buna görə də yalnız özünüzə aid işlərlə məşğul olun.

OĞLAQ - Saat 14-ə qədər neytarllıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir.

SUTÖKƏN - Bütün göstəricilər səfərlərə çıxmaqdan məmnunluq duyacağınızı xəbər verir. Elə isə vaxtı fövtə verməyin. Bu gün fəaliyyətlə bağlı işlər o qədər də uğurlu vaxt deyil.

BALIQLAR - Ümumi kosmik mənzərə sizdə səhhətlə bağlı problem yarada bilər. Bu səbəbdən də qayğınıza qalmağa çalışın. Ayaq nahiyənizə xüsusi diqqət ayırın. Qalan sahələrdə normallıq olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**



## Bu da narkotik aparatı

Amerikanın bəzi ştatlarında narkotik istifadəsinə icazə verilməsindən sonra narkotik aparatları meydana çıxıb. İlk aparat Seattle şəhərindəki bir evdə quraşdırılıb. "ZaZZZ" adlı aparat müştərilərin kimliyi haqda məlumat aldıqdan sonra paket halında narkotik satır. Aparatdan bir paket narkotik almaq üçün 15 dollar ödəmək lazım gəlir. Paketin içərisində narkotik hazırlaması üçün yağ və enerji verən xüsusi bir maddə olur.

## İstanbulda elektriklə çalışan taksilər



Bir neçə gün əvvəl İstanbul küçələrində görünməyə başlayan elektriklə də çalışan taksi bu şəhərdə ilk olduğu üçün hər kəsin diqqət mərkəzindədir.

Bu taksilərin qiyməti 70-75 min dollar arasında dəyişir. Benzin xərci az olduğu və ətraf mühitə daha az zərər verdiyi üçün qiymətinin çox olması onu almaq istəyənləri narahat etmir. Elektriklə çalışan maşın "Toyota Corolla"nın yeni modelidir. Maşının 84 kv-luq elektrikli motoru var. Bu motor 11,9 saniyədə 100 km/saat sürət yığa bilir. Məcburi hallarda sürəti saatda 160 km-ə çata bilir. Maşın bir dəfə elektrik yığdığı zaman maksimum 420 km, ortalama 280 km məsafə qət edə bilir.

## Facebook depressiyaya sala bilir



Facebook sosial şəbəkəsindən başqalarının həyatına nəzarət etmək insanların psixologiyasına mənfi təsir edir. Amerikanın Missouri-Columbia Universitetinin alimləri facebookun fərqli məqsədlərlə necə istifadə edildiyini və bu istifadənin insanlara hansı formada təsir göstərdiyini araşdırıblar. Sinqapurda, 700 nəfərin üzərində aparılan araşdırmalar göstərib ki, insanlar başqalarının həyatına baxıb, özlərini onlara bənzətmək istəyirlər. Başqalarına bənzəyə bilmədikləri üçün də depressiyaya düşürlər. Araşdırmaçı Marqaret Duffi facebook haqqında bu sözləri deyib: "Facebook ailəniz və dostlarınızla əlaqə saxlamaq üçün yaxşı vasitədir. Lakin sosial şəbəkədən başqalarının həyatını izləyərək onların ailə vəziyyətinə və zənginliklərinə həsəd apardığınız zaman depressiyaya düşürsünüz".

Facebookdan yalnız dostları və ailəsi ilə əlaqə yaratmaq məqsədi ilə istifadə edənlərin psixologiyasına heç bir dəyişiklik olmayıb.

## Samuray qılıncı ilə satıcını hədələdi...



Almaniyadakı telefon mağazasında baş verənlər ətrafdakı hər kəsi qorxuya salıb. Aldığı mobil telefonu dəyişdirmək istəyən qadın satıcı ilə mübahisə zamanı qəribə hərəkət edib. Adı açıqlanmayan qadın mağazadan telefon alıb. Bir müddət onu istifadə etdikdən sonra telefonu dəyişdirməyə qərar verib. 54 yaşlı qadının telefonu dəyişdirmək fikrinə etiraz edən satıcı gözləmədiyi reaksiya ilə üzləşib. Yaşlı qadın özü ilə gətirdiyi samuray qılıncını çəkərək onu başını kəsməklə təhdid edib. Həmin vaxt mağazadakı digər satıcılar qadına yaxınlaşaraq əlindəki qılıncı alaraq, yerə uzadıblar. Hadisə yerinə polis gələnə qədər qadın ona yaxınlaşanları dişləyib. Polis şöbəsinə aparılan qadının sinir xəstəlikləri xəstəxanasında yatdığı məlum olub.



## Dünyanın ən maraqlı kəndi

Bir zamanlar Koreyanın kiçik və sakit kəndi olan Panmunjom indi dünyanın ən maraqlı yerlərindən birinə çevrilib. Şimali və Cənubi Koreya arasındakı sərhəddə yerləşən kənd tampon bölgə hesab edilir. Yəni buraya əsgərlər girə bilmir. Ortadan ikiyə ayrılan kənddə bir küçə hər iki ölkəyə aiddir. Küçədə yerləşən Birləşmiş Millətlər Atəşkəs Komissiyasının Konfrans Binası da bölünüb. Hətta binadakı masa da bölünüb. Masada sərhədin keçilməməsi üçün hər tərəfində bir əsgər gözləyir. Sərhəd masasının ətrafındakı əsgərlərə toxunmaq isə qadağandır. Masada oturanların əllərini bir neçə santimetr qabağa uzatması sərhədi pozmaq deməkdir.

## Barmağın uzunluğu sədaqət ölçüsüdür



İngilis araşdırmaçılar qadın və kişilərin işarə barmağının üzük barmağına görə uzunluğunun "sədaqət ölçüsü" ola biləcəyini açıqlayıblar. Təcrübə zamanı 314 qadın və kişinin barmaqları müqayisə edilib. Təcrübəçilərin əl formaları və münasibətlər araşdırıldığı zaman işarə barmağı və üzük barmağı eyni boyda olanların daha sadiq olduqları məlum olub. Üzük barmağı uzun olanların isə daha seçici olduqları məlum olub.

## 19 dil bilən robota iş tapıldı



Yaponiyada bir bankda aprel ayından etibarən bir robot müştərilərə xidmət edəcək. Ölkənin ən böyük bankı olan "UFJ Financial Group"un rəhbərliyi müştərilərin diqqətini cəlb etmək üçün robotu işə götürdüyünü açıqlayıb. Robot yaxşı işləyərsə bankdakı digər şöbələrə də ondan yerləşdiriləcək. İnsan üzlərini seçmə bacarığı olan robot 19 dildə danışa bilir. Fransada istehsal edilən Neonun uzunluğu 58 santimetr, ağırlığı 5 kilodur. 2005-ci ildə istehsalına başlanılan robot müştərilərə pul çəkməkdə, göndərməkdə və hesab açmaqda kömək edəcək.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.